www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 aprel 2018-ci il Çərşənbə № 89 (6978) Qiyməti 60 qəpik

**Xəbər**

## Eldar Mahmudova qarşı məhkəmə başladı

yazısı səh.4-də

**Gündəm**

### Ombudsman Milli Məclisə amnistiya üçün müraciət etdi



Mətbuat Şurasının sədri Elmira Süleymanovanın illik hesabatını tənqid etdi; Əli Məsimli: "150 manat təqaüd alan pensiyaçıların banklara olan borcları bağlansın"

yazısı səh.6-da

### Elçibəyi təhqir edən yazara ağır cavablar

yazısı səh.3-də

### 6 seçki dairəsi deputatsızdır

yazısı səh.10-da

### Həbsdəki Kommunist Partiyasının sədrinin oğlu danışdı

yazısı səh.3-də

### Alpinistlərin itkin düşməsindən 4 ay ötdü

yazısı səh.14-də

### Moskva və İrəvan ənənəvi Qarabağ kursunu dəyişəcəkmi?

yazısı səh.11-də

### Mayda məşhur məhbuslar azadlığa çıxa bilər

yazısı səh.3-də

*İspaniyada yaşayan həkim Azər Ağalarov:*

### "O vaxt ya özünü asmalı, ya da ölkədən qaçmalı idin"

yazısı səh.13-də

### İranda dövlət çevrilişinə hazırlıq iddiası

yazısı səh.15-də

### Peyğəmbəri təhqirə görə dostunu öldürənə məhkəmə bəraət verdi

yazısı səh.14-də

### Bayıl sürüşməsi səngiyib, narazılıq isə artıb

yazısı səh.12-də

### Taksi və avtobuslarla bağlı yeni cərimələr gəlir

yazısı səh.14-də

# PREZİDENT HÖKUMƏTİ NİYƏ "7"LƏRƏ ETİBAR ETDİ - MÜHÜM SƏBƏBLƏR

Sabiq baş nazirin və müavinlərinin "nəvəsi yaşında olanlar"a nazir portfeli verilməsi niyə indi mümkün oldu?; hökumət vitrininin ASAN-laşdırılması Qərb dövlətlərinin də diqqətindən yayına bilməz...




yazısı səh.5-də

# Ermənistanda kritik gün - bu gün inqilabın taleyi həll olunur

Erkən parlament seçkilərinədək işğalçı ölkənin müvəqqəti baş nazirinin adı bu gün bəlli olmalıdır; İrəvanda həlledici danışıqlar başlayır

yazısı səh.8-də



### Nazim İbrahimov korrupsiya ittihamı barədə: "Dövlət nə qərar verəcəksə, o da olacaq"

yazısı səh.4-də



### Sərdar Cəlaloğlu hökumətin gəncləşməsinə qarşı çıxdı

yazısı səh.5-də



### Hüseyn Abdullayevin həbsi ilə bağlı şok detallar

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 89 (6978) 25 aprel 2018



## "Formula-1" yarışlarına 2 gün qaldı

**Bakının "Formula-1" yarışlarına ev sahibliyi etməsinə 2 gün vaxt qaldı. Belə ki, aprelin 27-29-da keçirilməsi planlaşdırılan "Formula-1" Azərbaycan Qran-Prisi ard-arda olmaqla Bakıda üçüncü dəfə baş tutacaq.**

Bakı Şəhər Halqasından "Yeni Müsavat"a bildirilib ki, artıq yarışla bağlı son tamamlama işləri görülür.

Aprel ayının 22-dən 23-nə keçən gecədən etibarən tədbir tam başa çatana qədər trekin keçdiyi bütün yollarda avtomobilin hərəkəti məhdudlaşdırılıb.

Eyni zamanda Bulvar ərazisinə də giriş məhdudlaşıb. Yollarda isə qoruyucu və treki görməni məhdudlaşdıran örtüklər çəkilib. Yarışı yalnız tribunalardan və müvafiq yerlərdən izləmək mümkün olacaq. Bundan əlavə, şəhərin mərkəzində, Qoşa Qala qapılarının önündə xüsusi avadanlıqlar, tibb məntəqəsi quraşdırılıb ki, bundan da yarış zamanı istifadə olunacaq.

Hər il olduğu kimi bu il də Bakı şəhərində keçiriləcək yarışı izləmək və işıqlandırmaq üçün həm yerli, həm xarici media nümayəndələri qeydiyyatdan keçiblər. Bildirilib ki, jurnalistlərin akkreditasiya kartları 25 aprel tarixində saat 15:00-da gələcək. Bu, ötənilki yarışlarda da belə olub. Jurnalistlərin akkreditasiya kartları yalnız yarışa 2-3 gün qalmış verilir.

Yarış üçün Bakı artıq, demək olar ki, hazırdır.

Bakı Şəhər Halqasının yaydığı məlumata görə, "Formula-1" Azərbaycan Qran-Prisində iştirak edəcək komandalar artıq şəhərimizə gəlməyə başlayıb. Qeyd olunub ki, komandaların nümayəndələri artıq Bakıdadır, pilotlar isə bir neçə günə gələcək. Bir neçə gün ərzində həm komandaların, həm də pilotların hamısının gəlməsi nəzərdə tutulub.

Bundan əlavə, komandaların avadanlıqları da Bakıya gətirilib.

Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidmətindən bildirilib ki, yarış bolidləri, onlara xidmət üçün və yarışların təşkili üçün lazım olan avadanlıq da daxil olmaqla 780 tondan çox yük Şanxay, Sinqapur və Bəhreyndən səkkiz reyslə gətirilib. Daha bir reys bu həftə yerinə yetiriləcək.

Yüklərin böyük hissəsi Azərbaycanın "Silk Way West Airlines" aviaşirkəti tərəfindən daşınıb.

2018 "Formula-1" Azərbaycan Qran -Prisinin başlamasına kimi ümumilikdə 800 tondan çox yükün gətirilməsi planlaşdırılır.

Qeyd edək ki, bolidlərin təkərləri daimi +20 dərəcə temperaturun saxlanıldığı xüsusi konteynerlərdə daşınır.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**



## "Beşiktaş" - "Qarabağ" oyununun vaxtı bəlli oldu

**Türkiyənin "Beşiktaş" klubu bu il Azərbaycana səfər edəcək. "Qafqazinfo" xəbər verir ki, "qara-qartallar"ın ölkəmizə səfəri sentyabr ayında reallaşacaq. İstanbul klubu ölkəmizə səfər çərçivəsində "Qarabağ"la dostluq oyunu keçirəcək. Qarşılaşma Bakı Olimpiya Stadionunda reallaşacaq.**

Bu barədə məlumatı klubun prezidenti Fikret Orman yerli mətbuata açıqlamasında bildirib: "Azəbaycana səfər çərçivəsində dostluq oyunu keçirəcəyik və rəsmi mağazamızın açılışını edəcəyik. "Beşiktaş" inkişaf edir və əlbəttə ki, bizim qarşımızı kəsmək istəyənlər var. Bizimlə meydanda rəqabət etməlidirlər. Həm komandamız, həm də ölkəmiz üçün mübarizə aparacağıq".

Qeyd edək ki, Fikret Orman bir neçə gün öncə ölkəmizdə səfərdə olub.

# "Dövlət Miqrasiya Xidmətində rüşvətxorluğa son qoyulmalıdır"

## Ramiz Mehdiyev yeni nazirləri kollektivə təqdim etdi

**Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev yeni təhsil naziri Ceyhun Bayramovu Təhsil Nazirliyinin kollektivinə təqdim edib.**



Bu barədə Təhsil Nazirliyindən məlumat verilib.

Qeyd edək ki, prezident İlham Əliyevin sərəncamı ilə Ceyhun Bayramov təhsil naziri vəzifəsinə təyin olunub.

"Dövlət Miqrasiya Xidmətində rüşvətxorluğa son qoyulmalıdır". APA-nın ATV-yə istinadən verdiyi xəbərə görə, bunu R.Mehdiyev DMX-nin yeni rəisi Vüsal Hüseynovu kollektivə təqdim edən zaman bildirib.

PA rəhbəri Azərbaycan prezidenti İlham Əliyevin DMX-nin fəaliyyətinə müəyyən iradlar tutduğunu bildirib, Xidmətdəki nöqsanların aradan qaldırılmasının vacibliyini vurğulayıb: "Möhtərəm prezident hesab edir ki, Dövlət Miqrasiya Xidmətində təmizlik, aşkarlıq və şəffaflıq olmalıdır. Rüşvətxorluğa son qoyulmalıdır. Dövlət Miqrasiya Xidməti Azərbaycanın qapısıdır. O şəffaf, açıq və təmiz işləməlidir. Əgər Dövlət Miqrasiya Xidməti hörmət qazandırmırsa, belə bir qurum Azərbaycan üçün lazımsızdır".

Onu da qeyd edək ki, R.Mehdiyev aprelin 24-də daha iki yeni naziri - kənd təsərrüfatı naziri İnam Kərimovu və əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevi, Diaspora Komitəsinin sədri Fuad Muradovu rəhbər təyin olunduqları nazirliklərin kollektivlərinə təqdim edib.



## 1 milyonun ölkədən çıxarılmasının qarşısı alındı

**Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda xarici valyutanın gömrük sərhədindən bəyan etmədən keçirilməsi cəhdinin qarşısını alıblar.**

Dövlət Gömrük Komitəsindən modern.az-a verilən məlumata görə, Bakı-Moskva aviareysilə getmək istəyən Rusiya Federasiyasının vətəndaşı "yaşıl kanal" buraxılış sistemindən istifadə etməklə gömrük nəzarətindən keçsə də, lakin onun üzərində gömrük orqanına bəyan edilməmiş malların olması ilə bağlı əsaslı şübhə yaranıb.

Vətəndaş saxlanılıb və üzərində şəxsi yoxlama aparılıb. Nəticədə onun gödəkçəsinin və şalvarının ciblərində gömrük nəzarətinə əvvəlcədən təqdim edilməyən, şifahi, yazılı və ya elektron formada bəyan olunmayan cəmi 1 milyon Rusiya rublu (27500 AZN) aşkarlanıb.

Faktla bağlı araşdırma aparılır.





## Gözəl Bayramlı və Əfqan Muxtarlının vəkilinə qadağa

**Aprelin 23-də Vəkillər Kollegiyasının Rəyasət Heyətinin iclası keçirilib. "Qafqazinfo"nun verdiyi xəbərə görə, iclasda baş prokurorun birinci müavini Rüstəm Usubovun müraciətinə baxılıb. R.Usubov qeyd edib ki, AXCP sədrinin müavini Gözəl Bayramlının vəkili Əsabəli Mustafayev və jurnalist Əfqan Muxtarlının vəkili Nemət Kərimli mətbuata müsahibə verərkən müvəkkilərinin işini siyasiləşdirməklə, sübutların saxta olduğunu deməklə hüquq-mühafizə orqanlarının işinə kölgə salıblar.**

Rəyasət Heyəti də Usubovun müraciətini təsdiqləyərək hər iki vəkilin 1illik müddətə fəaliyyət göstərməsinə qadağa qoyub. Vəkillər bununla razılaşmır və heç bir qanun pozuntusuna yol vermədiklərini və qərarla bağlı məhkəməyə müraciət edəcəklərini bildiriblər.

## ABŞ Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolunu seçir

**"ABŞ Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllini güclü şəkildə dəstəkləməyə davam edir".**



Bu sözləri APA-ya açıqlamasında ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Endryu Şofer deyib.

O bildirib ki, ATƏT-in Minsk Qrupunun üzvü kimi ABŞ tərəflərlə sülh yolu ilə həllin tapılması işində aktiv işləməyə davam edəcək: "ABŞ həmçinin tam olaraq həmsədrlərin ötən gün verilmiş bəyanatını dəstəkləyir. Bu bəyanatda həmsədrlər tərəfləri atəşkəsə hörmət etməyə və təmas xəttində gərginliyin azaldılması üçün təcili tədbirlər görməyə çağırıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyinizkifayətdir.

**Telefon: (012) 434 93 01**

## Ərdoğan ermənilərə başsağlığı verdi

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Osmanlı imperiyasında 1915-ci il hadisələri zamanı həyatını itirən ermənilərlə bağlı İstanbuldakı Erməni Apostol Kilsəsində təşkil edilən mərasimin iştirakçılarına başsağlığı məktubu göndərib.**

Türkiyə Prezident Administrasiyasının saytında yerləşdirilmiş məlumata görə, Ərdoğan həyatını itirən Osmanlı ermənilərini hörmətlə yad etdiyini, onların övladlarına və nəvələrinə başsağlığı verib.

Türkiyə prezidenti türk xalqının tarix boyunca ağrı-acıları bir-birindən fərqləndirmədiyini, müqayisə etmədiyini, bu acıları paylaşdığını qeyd edib: "Bu gün də biz bu mirasımıza sadiq qalaraq qardaşlığı, sülh və sabitliyi gücləndirməyə çalışırıq. Erməni vətəndaşlarımızın tarixdə yaşadıqları acıları paylaşmaq türk millətinin vicdan və əxlaqının tələbidir. İnşallah, qarşıdakı dönəmdə də sizlərin dərdlərinizə ortaq olmağa, problemlərinizin həlli yolunu tapmağa kömək edəcəyik. Erməni vətəndaşlarımızın da mədəniyyətimizə, bəşəri, siyasi və iqtisadi həyatımıza töhfələrini artıracağına inanıram. Sizin bu günə qədər olduğu kimi, bundan sonra da ortaq tariximizi təhrif edərək kin, nifrət və qisasa çağıranlara fürsət verməyəcəyinizə əminəm. Bir daha Birinci Dünya müharibəsi illərində həyatını itirən Osmanlı ermənilərinin xatirəsini hörmətlə yad edirəm".

## Bakıda 20 dərəcə isti olacaq

**Aprelin 25-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturunun Abşeron yarımadasında gecə 8-10, gündüz 15-20, Bakıda gecə 8-10, gündüz 18-20 dərəcə isti olacağı gözlənilir.

## Kadırov: "Çeçenistana gəlsə, Tramp həbs ediləcək"

**Çeçenistan lideri Ramzan Kadırov "Rossiya 24" telekanalına müsahibə verib.**

Virtualaz.org xəbər verir ki, Kadırov Tramp və Merkel kimi Qərb siyasətçilərinin Çeçenistana gələcəkləri təqdirdə nə baş verəcəyi barədə danışıb.

"Biz də Tramp, Merkel və digərləri barəsində sanksiya qərarı qəbul etmişik. Əgər onlar respublikaya gəlsələr, dərhal onları tutub həbs edəcəyik. Əgər burada hesab açsalar, bağlayacağıq", -deyə Çeçenistan başçısı bildirib.

YENİ MÜSAVAT
N 89 (6978) 25 aprel 2018

# "Sənə bir daş atar yerindən duran"- Elçibəyi təhqir edən yazara ağır cavablar

**Bu il mərhum eks-prezident Əbülfəz Elçibəyin 80 illik yubileyi qeyd olunacaq. Bu münasibətlə İctimai Təşkilat Komitəsi də yaradılıb. Komitənin yaradılmasında məqsəd yubileylə bağlı Azərbaycanda və ölkədən kənarda silsilə tədbirlər keçirməkdir. Komitəyə Əbülfəz Elçibəyin mətbuat katibi və silahdaşı olmuş professor Ədalət Tahirzadə sədr, Əbülfəz Elçibəyin köməkçisi olmuş Oqtay Qasımov isə sədrin müavini seçilib.**



Eks-prezidentə hökumət tərəfindən rəsmi yubiley keçiriləcəyi haqqında isə hələlik məlumat yoxdur.

Ötən gün yazar-jurnalist Kəramət Böyükçöl yubileyi ərəfəsində sabiq prezident Əbülfəz Elçibəy haqqında sosial şəbəkədə təhqiredici status paylaşıb, özünün də ona bənzədiyini qeyd edib. Yazarın bu cür aşağılayıcı statusu sosial şəbəkə izləyiciləri tərəfindən qəzəblə qarşılanıb, tənqid olunub.

**Məsələ ilə bağlı Elçibəy hökuməti zamanı baş nazir postunda olmuş, AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"a danışaraq məsələyə bu cür mövqe bildirib:**

"Həmin statusla tanış deyiləm. Ümumiyyətlə, Elçibəy haqqında nəsə pis alçaq fikirlər yazanlar varsa, onlar özlərinin şəklini çizirlər".

**Elçibəyin kürəkəni Aqil Səmədbəyli** gənc yazarın bu davranışını tərbiyəsizlik adlandırıb: "Bu Böyükçöl gündəmdə qalmaq üçün tarixi şəxsiyyətə daş atır. "KQB"-nin yaydığı şayiələrdən biri də bu idi bəylə bağlı. Bu, olsa-olsa Elçibəyin ayaqqabısının altına yapışan pis tozlardan ola bilər".

Bu gədənin sonu yaxşı görünmür. Həyatını şər-böhtan, ləyaqətsizlik üzərində quranların sonu həmişə pis olur".

Aqil Səmədbəyli qeyd etdi ki, mərhum prezidentin yubileyi ilə bağlı artıq Türkiyədə tədbirlərə start verilib:

"Bu günlərdə Eskişehirdə bir tədbirimiz oldu. Mayın 2-də isə Konyada keçiriləcək. Daha sonra isə İstanbul, Ankarada, eləcə də Rusiya və Ukraynada da bu cür tədbirlərimiz olacaq".

**Əbülfəz Elçibəyin köməkçisi olmuş Oqtay Qasımov** da məsələyə mövqe bildirib: "Öncə onu qeyd edim ki,



**Aqil Səmədbəyli:** "Bu, olsa-olsa Elçibəyin ayaqqabısının altına yapışan pis tozlardan ola bilər"



**Rüstəm Behrudi:** "Ömründə bircə dəfə üz-üzə görmədiyin adamı təhqir etməyin bircə adı var-tərbiyəsizlik!"

Kəramət Böyükçöl bundan əvvəl də Azərbaycanın görkəmli ziyalıları haqqında yazdığı təhqiramiz statuslar cəmiyyətdə xeyli müzakirə və mübahisələrə, eyni zamanda ciddi etirazlara səbəb olmuşdu. Adətən kiminsə haqqında rəy bildirəndə onun əməyinə, gördüyü işlərə görə qiymət verilir. Lakin insanlar bunu edəndə öz vicdanlarına söykənməlidirlər. Əgər kimsə birinin haqqında təhqiramiz fikir səsləndirirsə, əslində öz tərbiyəsini nümayiş etdirir. Bu cür adamlara da deyiləcək söz olmur.

Əlbəttə ki, Əbülfəz Elçibəy Kəramət kimi bu və ya digər motivlərin nə deməsindən asılı olmayaraq Azərbaycan tarixində öz rolu, yeri olan şəxsiyyətdir. O, Milli Azadlıq Hərəkatının lideridir, həmçinin 20-ci əsrdə Azərbaycanın ikinci dəfə müstəqillik qazanmasının memarıdır. Bu, belədir, tarixi inkar etmək olmaz".

**Şair Rüstəm Behrudi** də yazarı statusuna görə tənqid edib: "Kəramət Böyükçöl tanımadığı, heç vaxt görüşmədiyi Elçibəyi təhqir edir və bundan dolayı onu sevdiyini bəyan eləyir. Bu sevginin bir adı var—bir adamı təhqir eləyib sonra da təhqir olunmaqdan qorunmaq cəhdi! Sən istedadlı olduğundan bunu həmişə bacarmısan. Ancaq bu dəfə keçməz! Ömründə bircə dəfə üz-üzə görmədiyin adamı təhqir etməyin bircə adı var-tərbiyəsizlik!"

Xatırladaq ki, Əbülfəz Elçibəy 1938-ci ildə anadan olub. O, Azərbaycan Xalq Cəbhəsinin lideri və Azərbaycanın ikinci prezidenti olub. Həmçinin Elçibəy Azərbaycan tarixində xalq tərəfindən, demokratik seçkilər yolu ilə seçilən ilk prezident hesab olunur. Eks-prezident 22 avqust 2000-ci ildə, 63 yaşında Türkiyənin Ankara şəhərində vəfat edib.

Sonda Ramiz Rövşənin Elçibəy haqda yazdığı şeiri təqdim edirik.

***

**"Sənə bir daş atar yerindən duran"**
**Sənə bir daş atar yerindən duran,**
**Səni sevdiklərin daş-qalaq eylər.**
**Bir əlində daş var, birində Quran,**
**Daş atan bilirmi nə günah eylər?**

***

**Silərsən gözündən axan yaşları**
**Öpüb əzizlərsən sən o daşları.**
**Deyərsən: "Sağ olun, qan qardaşlarım,**
**Məni təzə daşa kim qonaq eylər?!"**

***

**Hər daş özü boyda köz olub yanar,**
**Cana damğa kimi basılıb yanar,**
**Qanlı yaraların qızarıb yanar,**
**Səni başdan-başa çılçıraq eylər.**

***

**Bircə tilsimin var, sevgi tilsimi,**
**Kim qırar Tanrıya bağlı bir simi?**
**Tanrı Tanrıdırsa, öz Elçisini,**
**Min bir daş altında yenə sağ eylər.**

***

**Sən dözərsən ağrısına,**
**Daş dözməz, daş haray eylər.**
**O daşlardan Tanrı sənə,**
**Bir ev tikib saray eylər.**

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



## Həbsdəki Kommunist Partiyasının sədrinin oğlu danışdı

### Akif Tükənov deyir ki, "üzəduranlar" Musa Tükənova rüşvət vermədiklərini etiraf edirlər

**"Atama qarşı irəli sürülən ittiham öz təsdiqini tapmır"**

Bu sözləri modern.az-a açıqlamasında Azərbaycan Vahid Kommunist Partiyasının sədri, "Azərbaycan Karlar Cəmiyyəti" İctimai Birliyinin sədr müavini Musa Tükənovun oğlu Akif Tükənov deyib.

O bildirib ki, vaxtilə şikayət edənlər indi rüşvət vermədiklərini deyirlər.

"Vaxtilə "Musa bizdən rüşvət alıb" deyən şikayətçilər indi məhkəmədə deyirlər ki, "Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin müstəntiqi İlkin Mustafayev özü elə yazıb, biz elə ifadə verməmişik". Onlar deyiblər ki, "biz rüşvət verməmişik, öz təşəbbüsümüzlə, kömək kimi pul vermişik". Amma onların pul verməyi təsdiq olunmayıb. Musa Tükənova qarşı verilən ittihamların heç biri öz təsdiqini tapmır".

Akif Tükənov deyib ki, "üzəduranlar" Musa Tükənova rüşvət vermədiklərini etiraf edirlər.

"Onlar "biz, ümumiyyətlə, rüşvət verməmişik, bizim istintaqda verdiyimiz ifadə başqa cür yazılıb" deyirlər.Yeni ortada rüşvət verilməyi yoxdur. Güya Musa Tükənov rüşvət verdiyinə görə həbs edilib, amma rüşvəti verən ortaya çıxmır. Hakim, "rüşvət alan varsa, verən də var. Bəs rüşvət verən hardadır?" soruşur. İstintaq "Azərbaycan Karlar Cəmiyyəti"ni zərərçəkən kimi təqdim edir, amma cəmiyyətdən deyirlər ki, "Musa Tükənov bizə heç bir zərər verməyib. Məhkəmədən ədalətli qərar gözləyirik"".

Atasının səhhətindən danışan Akif Tükənov onun səhhətinin yaxşı olmadığını deyib:

"Atam iki dəfə infarkt keçirib, şəkər xəstəsidir. Onun səhhətinə diqqət etmək lazımdır, amma həbsxana şəraitində bu, mümkün deyil".

Qeyd edək ki, ötən ilin noyabrında 3 nəfər əlil şəxs Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə "Azərbaycan Karlar Cəmiyyəti" İctimai Birliyinin sədr müavini Musa Tükənovdan şikayət edib.

Həmin şəxslər şikayətlərində bildiriblər ki, M.Tükənov onlardan pul alıb və geri qaytarmayıb. Həmin faktla bağlı Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanılıb.

Binəqədi Rayon Məhkəməsinin qərarı ilə M.Tükənov barəsində 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

# Mayda məşhur məhbuslar azadlığa çıxa bilər

### **Əliməmməd Nuriyev:** "Əfv Komissiyasının katibliyi hal-hazırda da iş başındadır"

**Bu il Novruz bayramı ərəfəsində, mart ayında yeni əfv olacağı ilə bağlı bəyanatlar səslənsə də, əfv sərəncamı imzalanmadı. Bəzi hüquq müdafiəçiləri bildirdi ki, əfv sərəncamının imzalanmamasına səbəb növbədənkənar prezident seçkisinin salınması oldu. Artıq Azərbaycanda prezident seçkisi başa çatıb, yeni hökumətin tərkibi təsdiqlənib. Gözlənilən budur ki, yaxın günlərdə prezident tərəfindən əfv sərəncamı imzalana və yüzlərlə məhbus azadlığa çıxa bilər.**

Mətbuatda yayılan məlumatlara görə, may ayında mərhum prezident Heydər Əliyevin anadan olmasının 95 və Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə bağlı həm amnistiya aktının qəbulu, həm də əfv sərəncamının imzalanacağı gözlənilir. Yəni təxminən bir ay sonra çoxsaylı məhbus barmaqlıqlar arasından xilas ola bilər.

Hazırda siyasi cameədən də həbsdə olan şəxslər var. Ehtimal olunur ki, bu dəfə imzalanan əfv sərəncamı ilə siyasilər də azadlığa buraxılacaq.



Dustaq ailələri də buna ümidlidir. Siyasilərdən REAL sədri İlqar Məmmədov, AXCP-dən Asif Yusifli, Məmməd İbrahim, Seymur Həzi, vəkil Əliabbas Rüstəmov və NİDA-çı İlkin Rüstəmzadə kimi şəxslərin adlarını qeyd edə bilərik. Bu şəxslərlə yanaşı sabiq səhiyyə naziri Əli İnsanov un da azad edilməsi gözlənilir.

**"Yeni Müsavat"a danışan Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev** bildirib ki, komissiyanın iclasları keçirilir: "Aprel ayında iclaslar baş tutub. Hal-hazırda Əfv Komissiyasının katibliyi işləyir. Sənədlərin emalı gedir, arayışlar hazırlanır. Yəqin ki, yaxın günlərdə də komissiyanın növbəti iclasları baş tutacaq. Mən də ümid edirəm ki, may ayında əfv sərəncamı imzalanacaq".

Yuxarıda da qeyd etdiyimiz kimi, bu dəfə imzalanacaq əfv sərəncamı ilə İlqar Məmmədov da azadlığa çıxa bilər. Hüquq müdafiəçiləri, ekspertlər hesab edirlər ki, İlqar Məmmədovun növbəti əfv sərəncamı ilə azadlığa buraxılmasına ümidlər böyükdür. Elə ailəsi də bu ümidlə gözləyir.

**İ. Məmmədovun xanımı Vəfa Məmmədova "Yeni Müsavat"a** bildirib ki, onunla ötən həftə görüşüb:

"Onunla keçən həftənin şənbə günü görüşmüşəm. Səhhətində hər hansı bir problem yoxdur. Ehtimal və ümidlər var ki, İlqar Məmmədov əfv sərəncamı ilə azadlığa çıxacaq. Ancaq yenə də dəqiq heç nə deyə bilmərik. Çünki neçə illərdir ki, İlqar Məmmədovun adı əfv sərəncamı ilə azadlığa çıxanların siyahısına daxil edilmir. Bu dəfə də yüksək ümidimiz yoxdur. Özünün, hələ ki, cəmiyyətə, ictimaiyyətə çatdırmaq üçün hər hansı bir mesajı yoxdur".

❑ **Əli RƏİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 89 (6978) 25 aprel 2018

**Musavat.com xəbər verir ki, Yasamal Rayon Məhkəməsində "MTN işi"ndə zərərçəkmiş qismində tanınan Mətləb Mustafayevin keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudova qarşı iddiası əsasında məhkəmə başlayıb.**

# Eldar Mahmudova qarşı məhkəmə başladı

## İntihar edən polkovnikin qardaşı qanunsuz olaraq həbs edildiyinə görə sabiq nazirdən 100 min manat tələb edir



Xatırladaq ki, "MTN işi"ndə zərərçəkmiş qismində tanınan Mətləb Mustafayev keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovu və ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Baş İstintaq İdarəsinin rəisi vəzifəsində çalışmış Mövlan Şıxəliyevi məhkəməyə verib.

Hakim Sərdar Mehrəliyevin sədrliyi ilə keçirilən prosesdə cavabdeh Eldar Mahmudovun iştirak etmədiyi məlum olub. Məhkəmə zalında olan bir nəfər özünü E.Mahmudovun qayını kimi təqdim edib. O, qeyd edib ki, E.Mahmudovun məhkəməyə verilməsini aprelin 23-də biliblər. Onun sözlərinə görə, sabiq nazir qızı ilə eyni ünvanda qeydiyyatdadır.

O, iddia ərizəsi ilə tanış olmaq və nümayəndə ilə məhkəməyə gəlmək barədə şərait yaradılmasını istəyib.

Daha sonra iddiaçı M.Mustafayev vəsatət qaldıraraq, işin Nəsimi Rayon Məhkəməsinə göndərilməsini tələb edib. O bildirib ki, ikinci cavabdeh qismində göstərilən Maliyyə Nazirliyinin inzibati binası Nəsimi rayonu ərazisində yerləşir: "Əgər iş Nəsimi Rayon Məhkəməsinə göndərilməsə, cavabdeh tərəf Eldar Mahmudovun da iştirakı ilə burada - Yasamal Rayon Məhkəməsində baxılsın".

Məhkəmə vəsatəti təmin edib, cavabdeh Eldar Mahmudovun prosesdə iştirak etməsi barədə qərar qəbul edib.

Məhkəmənin hazırlıq iclası mayın 3-də davam etdiriləcək.

Yasamal Rayon Məhkəməsində iddia qaldıran M.Mustafayev sabiq nazirin sifarişi ilə şərlənərək həbs edildiyini yazıb və E.Mahmudovun ona 100 min manatdan çox pul təzminatı ödəməsini tələb edir.

M.Mustafayev M.Şıxəliyevə qarşı qaldırdığı iddia ərizəsini isə Səbayel Rayon Məhkəməsinə göndərib. O, iddia ərizəsində şərlənərək həbs edilməsindən sonra barəsində olan cinayət işi üzrə istintaqın M.Şıxəliyevin rəhbərlik etdiyi idarədə aparıldığını bildirib. M.Mustafayev sabiq idarə rəisindən 63 min manat təzminat tutularaq ona ödənilməsini istəyib.

Bu iddia ərizəsi üzrə hazırlıq iclası mayın 1-nə təyin olunub. İşə hakim Nurəddin Bağırovun sədrliyi ilə baxılacaq.

Bundan başqa, M.Mustafayev hər iki iddia ərizəsində Maliyyə Nazirliyini də cavabdeh kimi göstərib. O, buna səbəb kimi isə həm E.Mahmudov, həm də M.Şıxəliyevin vaxtilə dövlət orqanlarında rəhbər şəxs olmalarını qeyd edib.

Xatırladaq ki, M.Mustafayev əvvəllər Dövlət Əmlak Komitəsində müxtəlif vəzifələrdə, həmçinin 2014-cü ilədək "Azərsu" ASC-də iqtisadçı işləyib. O, 2014-cü ilin sentyabrında MTN-in keçirdiyi əməliyyat nəticəsində həbs edilib. M.Mustafayev Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz silah saxlama) maddəsi ilə ittiham edilib və 2015-ci il aprelin 24-də Nəsimi Rayon Məhkəməsinin hökmü ilə 2 il müddətinə azadlıqdan məhrum olunub. Bakı Apelyasiya Məhkəməsi isə hökmü qüvvədə saxlayıb. Ali Məhkəmə isə Bakı Apelyasiya Məhkəməsinin qərarını ləğv edib.

Bundan sonra Bakı Apelyasiya Məhkəməsi M.Mustafayevin işinə yenidən baxaraq onun barəsində bəraət hökmü çıxarıb.

Mətləb Mustafayev MTN-də 31 il xidmət etmiş polkovnik Malik Mustafayevin qardaşıdır.

Cinayət işi materiallarında yazılır ki, MTN Mətləb Mustafayevdən vəzifəli şəxslər barəsində məlumatlar tələb edib. Mətləb Mustafayev bununla razılaşmadığı zaman onun qardaşı Malik Mustafayevə də təzyiqlər başlayıb.

Mətləb Mustafayev MTN-in tələbi ilə razılaşmadığı üçün şərlənərək həbs edildiyini deyir. Polkovnik Malik Mustafayev isə qardaşının həbsindən bir neçə gün sonra özünü asaraq intihar edib.

Qeyd edək ki, M.Mustafayev MTN-in Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev və Azər Mehdiyevin cinayət işində zərərçəkmiş qismində tanınır.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə E.Quliyev 10 il 6 ay, A.Mehdiyev isə 8 il azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsi də hökmü qüvvədə saxlayıb.

❑ **İlkin MURADOV,**
**Musavat.com**



Nazim İbrahimov

# "Dövlət nə qərar verəcəksə, o da olacaq"

## Nazim İbrahimov Diasporla İş üzrə Dövlət Komitəsində mümkün yoxlamalardan danışdı

**Ramiz Mehdiyev Nazim İbrahimovu dövlət vəsaitini mənimsəməkdə günahlandırdı: "Diasporla İş üzrə Dövlət Komitəsinin işində narazılıqlar var idi, Komitənin sədri Nazim İbrahimov öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyib. Təbii ki, bütün bunlardan Prezident İlham Əliyevin də məlumatı var. Buna görə də Prezident Nazim İbrahimovun işdən azad edilməsi barədə sərəncam verib".**

Bunu "Report"un sualını cavablandıran Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev deyib.

O xatırladıb ki, prezidentin növbəti sərəncamı ilə Fuad Muradov Diasporla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin olunub: "Cənab Prezident Fuad Muradovla görüşüb və ona konkret tapşırıqlarını verib. Gənc və perspektivli kadr olan Fuad Muradovun Diasporla İş üzrə Dövlət Komitəsinə sədr təyin olunması böyük əhəmiyyət kəsb edir".

Ramiz Mehdiyev qeyd edib ki, Nazim İbrahimovun rəhbərliyi dövründə nə Gürcüstanda, nə Avropa ölkələrində, nə də Orta Asiya ölkələrində yaşayan azərbaycanlılarla heç bir iş görülməyib: "Düzdür, komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb".

"Ramiz Mehdiyev bizim ağsaqqalımızdır. Onun fikirlərini birmənalı olaraq qəbul edirik".

Nazim İbrahimov PA rəhbəri, akademik Ramiz Mehdiyevin komitənin fəaliyyətindəki qüsurlarla bağlı açıqlamasına münasibət bildirərkən unikal.org saytına belə deyib.

N.İbrahimov bildirib ki, Ramiz Mehdiyev komitədə maliyyə mənimsəməsi olduğunu deməyib. O, komitənin fəaliyyətinin təftişinin mümkünlüyünə də aydınlıq gətirib: "Bizim işimiz göz qabağında olub. Hər zaman dövlətimizə, cənab prezident İlham Əliyevə sədaqətli olmuşam. Təftiş etmək, yoxlama aparmaq dövlətin işidir. Dövlət nə qərar verəcəksə, o da olacaq".

# Neftin qiyməti 75 dolları keçdi

## Ekspert: "Hazırda bazara təsir edən siyasi amillərdir"

**Dünya bazarında neftin qiyməti 2014-cü ildən bəri ən yüksək həddə çatıb. Belə ki, son iki gündə Brent markalı neftin qiyməti 75 dollara çatıb. Azərbaycana məxsus "AzeriLight" markalı neft isə dünən 75 dolları keçib. Dünya neft bazarındakı bu yüksəlişə səbəb nədir? Qiymətlərin indiki səviyyəsi nə qədər davam edə bilər?**



Sualları cavablandıran **ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru Elnur Soltanovun "Yeni Müsavat"a** dediyinə görə, dünya neft bazarında qiymətlərin yüksəlməsinin bir sıra səbəbləri var: "Bildiyiniz kimi, qiymətlər artıq xeyli müddətdir ki, artım dinamikası nümayiş etdirir. Bunun qalıcı səbəblərindən biri OPEK-in hasilatı azaltmasıdırsa, digər səbəbi də dünya iqtisadiyyatının artım tempinin sürətlənməsidir. Bu gün Çin və Hindistanda iqtisadiyyat gözlənildiyindən daha yüksək sürətlə böyüyür. Yeni Amerika dünyanın ən böyük istehlakçısı olaraq qalsa da, ən sürətli istehlak artımı məhz Asiya bazarlarında baş verir. Bu vəziyyətdə istehsal azaldılır, tələbat isə artır deyə qiymətlər də artır. Düzdür, son vaxtlar ABŞ şişt neft istehsalını sürətlə genişləndirir ki, bunun da yaxın zamanlarda neftin qiymətinin 60 dollar civarında qərarlaşmasına gətirib çıxaracağı gözlənilir. Lakin istehsal artsa belə, istehlak da artır deyə neftin yaxınmüddətli dövrdə 60 dollardan aşağı düşəcəyi gözlənilmir".

Ekspertin sözlərinə görə, dünya neft bazarında vəziyyətə təsir edən yeni amillər də yaranıb: "Əlbəttə, dünyada baş verən siyasi proseslər həmişə neft bazarında əksini tapıb. Bu baxımdan, ABŞ-la Rusiya, ABŞ-la İran arasında baş verən siyasi konfliktlər bu bazara mütləq təsir edir. Nəzərə almaq lazımdır ki, ABŞ-la münasibətləri gərginləşən hər iki ölkə dünya neft bazarının ən böyük oyunçularındandır. Bu nöqteyi-nəzərdən bazara xüsusilə İran-ABŞ münasibətləri daha çox təsir edir. Çünki Amerika prezidenrti Donald Tramp nüvə proqramı mövzusunda İranla əldə olunan sazişdən çıxacağını bir neçə dəfə bəyan edib. Avropanın, Rusiyanın etirazlarına baxmayaraq, Trampın bu məsələdə qəti olduğu hiss edilməkdədir. Bu isə yaxın 1-2 həftə ərzində İrana qarşı yeni sanksiyaların tətbiqi ehtimalını artırır - hazırda bu ehtimal 50 faizdən yuxarıdır. İran dünyanın ən böyük neft istehsalçılarından biri olduğuna görə bu sanksiya ehtimalları dünya neft bazarında qiymətlərə təsir göstərir. Bildiyiniz kimi, sanksiyalar götürüləndən sonra İran neft istehsalını sürətlə artırmışdı. Sanksiyaların bərpa olunması onun neftinin dünya bazarından çıxması demək olacaq. ABŞ-ın eyni zamanda yaxın dövrlərdə Rusiyaya qarşı sanksiyaları da genişləndirəcəyi gözlənilir. Bu da neft qiymətləri üzərində təzyiq yaradan amillərdəndir".

E.Soltanov onu da bildirir ki, dünya neft bazarındakı mövcud qiymətlərin nə qədər davamlı olub-olmayacağı İran-ABŞ, Rusiya-ABŞ münasibətləri, həmçinin Yaxın Şərqdəki vəziyyətdən asılıdır: "Bu haqda qəti bir söz demək, müddət göstərmək mümkün deyil. Çünki bazara təsir edən amillər arasında siyasi səbəblər güclüdür. Siyasi konfliktlərin necə həll olunacağını isə proqnozlaşdırmaq çətindir".

Onu da qeyd edək ki, Azərbaycan bu ilin birinci rübü ərzində neftin büdcədə nəzərdə tutulan 45 dollardan xeyli baha olmasından dolayı 2 milyard dollar əlavə gəlir əldə edib. Bu, "Azəri-Çıraq-Günəşli" yatağındakı hasilatdan dövlət payının satışından Dövlət Neft Fonduna daxil olan vəsaitdir. SOCAR-ın neft satışından əldə etdiyi gəlirlər, həmçinin xarici şirkətlərin dövlət büdcəsinə ödənişləri bura aid deyil.

Məlumat üçün bildirək ki, ötən ay Azərbaycandan gündəlik 629,6 min barel xam neft, 54 min barel kondensat, 10,6 min barel isə neft məhsulları ixrac edilib.

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 89 (6978) 25 aprel 2018

**Prezident İlham Əliyev aprelin 23-də hökuməti tam formalaşdırıb başa çatdırdı. Hələ seçkidən əvvəl hökumətdə gözlənilən dəyişikliklər ciddi müzakirə mövzusu idi. Prezidentin andiçmə mərasimindən dərhal sonra Prezident Administrasiyasının (PA) rəhbəri Ramiz Mehdiyevin geniş məqaləsində kadr islahatları ilə bağlı tezisləri hökumətin tərkibində ciddi dəyişikliklər olacağının anonsu idi.**




# Prezident hökuməti niyə "7"lərə etibar etdi - mühüm səbəblər

## Sabiq baş nazirin və müavinlərinin "nəvəsi yaşında olanlar"a nazir portfeli verilməsi niyə indi mümkün oldu?; hökumət vitrininin ASAN-laşdırılması Qərb dövlətlərinin də diqqətindən yayına bilməz...

Amma onu da etiraf etmək lazımdır ki, İ.Əliyevin yeni hökuməti ən optimist proqnozları belə yaxşı mənada alt-üst etdi. Artur Rəsi-zadənin yeni hökumətdən uzaqlaşdırılmasının ardınca baş nazirin və müavinlərinin "nəvəsi yaşında olanlar" nazir portfeli almağa başladı. İnam Kərimov (1977-ci il təvəllüdlü) kənd təsərrüfatı naziri, Sahil Babayev (1980-ci ildə anadan olub) əmək və əhalinin sosial müdafiəsi naziri, Samir Nuriyev (1975-ci il) isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri təyin edildi.

Şənbə və bazar günlərinə təsadüf edən bu təyinatların "şok"u adlamamış bəzi nazir və komitə sədrlərinin də təyinatı açıqlandı. Bu dəfə Ceyhun Bayramov (1973-cü ildə doğulub) təhsil naziri, Fuad Muradov (1979-cu il) Diasporla İş üzrə Dövlət Komitəsinin sədri, Fuad Nağıyev (1975-ci il) yeni yaradılmış Dövlət Turizm Agentliyinin sədri, Vüsal Hüseynov (1980-ci il) Dövlət Miqrasiya Xidmətinin rəisi, Qoşqar Təhməzli (1970) Qida Təhlükəsizliyi Agentliyinin sədri vəzifəsinə təyinat aldılar. Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə (1977) və vergilər naziri Mikayıl Cabbarovun (1976-cı il) Nazirlər Kabinetində yerlərini qoruduğunu da nəzərə alsaq, hökumətdə olan "qan dəyişikliyi"nin real mənzərəsi daha aydın olar. Yada salaq ki, 2013-cü il prezident seçkisindən sonra kabinetin tərkibində yalnız iki nazir vəzifəsini itirmişdi.

Azərbaycanda 40 yaşında nazir təyinatı ilk dəfə deyil, amma ilk dəfədir ki, yeni hökumətin tərkibində bu masştabda ciddi dəyişiklik baş verir və nazirlərin doğum tarixində "7"lər bu qədər üstünlük təşkil edir.

***

Hökumətin tərkibində baş vermiş kadr dəyişikliyini ehtiva edən bir neçə mühüm səbəb var.

Əvvəla, bu, daxili faktorla bağlıdır. İllərdir ki, hökumət əsas etibarilə sovet dövründə təcrübə toplamış məmurlardan və YAP elitasından qurulurdu. Müstəqilliyin ilk dövrlərində mərhum prezident Heydər Əliyev əsasən özü ilə işləmiş məmurların təcrübəsindən yararlanmağa üstünlük verdi. Azərbaycanda 1993-cü ildən sonrakı illərdə siyasi sabitlik möhkəmlənsə də, yaşlıları əvəz edə biləcək kadr potensialı qıtlığı var idi. Hakimiyyət bunları nəzərə alaraq yaşlılarla işləməyə üstünlük verir, bəzi hallarda hətta buna məcbur olurdu. Amma zaman keçdikcə kadr bazası yaradılmağa başladı ki, bunun da əsasını yenə hakim partiyanın elitası təşkil edirdi. İlham Əliyevin hakimiyyətə gəlməsinin ilk illərində də yaşlı komanda əsas etibarilə görəvdə qaldı.

Son 10 ildə isə zaman-zaman gənclərə nazirlik-komitələrdə və xüsusən Prezident Administrasiyasında "yaşıl işıq" yandırılmağa başladı. Doğrudur, indi adlarını çəkmək istəmədiyimiz bəzi gənc kadrlar hakimiyyətin etimadını doğrultmadı və siyasi sapmalara yol verdikləri üçün karyeralarına son qoyuldu. Amma müxtəlif nazirliklərdə xaricdə oxumuş, müasir dünya ilə ayaqlaşan və yeni idarəçilik təcrübəsi keçmiş kadrlar fəaliyyətlərini davam etdirirdilər ki, indi onların bir çoxuna prezident yüksək etimad göstərib.

Prezident İlham Əliyev bir çox çıxışlarında gənclərə böyük etimad göstərdiyini dəfələrlə dilə gətirib. Seçkidən sonra Heydər Əliyev Mərkəzinin qarşısındakı bayram çıxışında da İ.Əliyev bir daha Azərbaycanın gələcəyini gənclərin müəyyən edəcəyini vurğuladı. Yəni prezidentin gənclər və xüsusən hökuməti "Asan"laşdırmaq siyasəti illərdir ki, hazırlanırdı və 2018 bu məsələdə həlledici il oldu.

Hökumətdə ciddi dəyişikliyi zəruri edən daha bir səbəb, şübhəsiz ki, iqtidarın siyasi sabitlik və iqtisadi tarazılıq yaratması ilə birbaşa bağlıdır.

Əvvəlki təlatümlü illərdə hökumətdə hər hansı bir dəyişiklik əks-effekt verə bilirdi. Təcrübədən də görünüb ki, hökumətdən uzaqlaşdırılan bəzi şəxslər əks düşərgədə yer alırdı. Müxalif düşərgə də onlara dərhal qucaq açırdı. İqtidar komandanın monolitliyini qorumaq üçün ciddi dəyişikliyə xüsusi həvəs göstərmirdi ki, bu da başadüşülən idi. İndi nə əks düşərgə, yəni müxalifət deyilən bir ciddi və güclü qüvvə qalmayıb. Üstəlik, İlham Əliyev faktoru ölkədə siyasi sabitliyin yeganə qarantıdır.

Siyasi sabitliyi möhkəmləndirən iqtisadi "yol xəritələri"nin işlək hala gəlməsi ilə iqtidar xeyli rahatlanıb. Neftin qiymətinin sabitləşməsi manatın kursuna olan təhlükəni aradan qaldırıb. Məhz yaradılmış siyasi sabitlik fonunda İ.Əliyev xeyli yaşlaşmış, üstəlik, yeni dünyada dəyişən idarəçilik modelini icra etməyə imkanı olmayanları yola salmağa qərar verdi. Prezident Administrasiyası rəhbərinin yuxarıda xatırlatdığımız məqaləsindəki sitatı xatırlatmaq yerinə düşür. Sitata diqqət edək: "Öz fəaliyyətini siyasi müstəvidəki konyuktur dəyişiklikləri üzərində quran, daha çox qeyri-səmimiliyi, süst və ətalətli fəaliyyəti ilə seçilən, komanda prinsipini qətiyyən gözləməyən məmurlarla Azərbaycanın inkişafı naminə müəyyən edilmiş ali məqsədlərə çatmaq üçün vaxt baxımından çox böyük itkilərə yol verə bilərik".

Hökumətdə dəyişikliyi zəruri edən əsas səbəblərdən biri də, PA rəhbərinin dediyi kimi, zaman itkisinə yol verməməkdir. İlham Əliyevin 7 illik prezidentlik müddətində qarşıya qoyduğu əsas məqsədlərdən biri, əlbəttə ki, çevik hökumətlə Azərbaycanın qeyri-neft sektorunun inkişafına nail olmaq, əhalinin sosial təminatı və ölkənin xaricdə nüfuzunun daha da artırılmasıdır. Təsadüfi deyil ki, hökumətdə məhz bu üç istiqaməti kurasiya edəcək nazir və komitə sədri dəyişdirilib.

Kənd təsərrüfatı naziri təyin edilən İnam Kərimovun "ASAN xidmət" rəhbəri olduğu müddətdə fəaliyyəti bəyənilirdi. Şəffaflıq prinsipi ilə formalaşdırılan "ASAN xidmət" modelinin, nə qədər qəribə səslənsə də, kənd təsərrüfatında tətbiqi gözlənilir. Kənd təsərrüfatı qeyri-neft sektorunda əsas prioritetdir ki, sabiq nazir Heydər Əsədov bunun öhdəsindən gələ bilmədi. Bu sahədə monopoliya və rüşvətxorluq yığışdırılmadı. Yeni nazir isə kollektiv qarşısında ilk çıxışında əsas 3 fəaliyyət prinsiplərini açıqlayıb: düzgün və səmərəli idarəçilik, kəndli və fermerlərə yaxınlıq (şəffaflıq, səmərəlilik, hesabatlılıq), innovasiyaların tətbiqi. Aydındır ki, bu, sadəcə, gəlişigözəl sözlər deyil, prezidentin yeni nazir qarşısında qoyduğu tələbdir. Gözlənilir ki, ümumiyyətlə, yaxın illərdə hökumət tam "ASAN xidmət" modelinə keçsin. Bunun üçün həm gəncləşmiş komanda və siyasi iradə var.

Nəhayət, yeni hökumətin tərkibi, əlbəttə ki, Qərbdə də ciddi maraq doğuracaq. Sirr deyil ki, Qərbdən zaman-zaman prezidentin komandasının yaşlandığına işarələr edilirdi. Xaricdən gələn bu cür iradlara İ.Əliyevin mövqeyi bəlli olsa da, hökumətin tərkibindəki bu cür ciddi dəyişiklik Qərb dövlətlərinin diqqətindən yayına bilməz. Çünki hökumət bir vitrindir və bunu xaricdən gizlətmək mümkün deyil.

Prezident həm də bu vitrini dəyişdi...

❑ **"Yeni Müsavat"**

# Sərdar Cəlaloğlu hökumətin gəncləşməsinə qarşı çıxdı

## "Şimali Koreyanın prezidenti 22-23 yaşında hakimiyyətə gəlib, indi də dünyaya meydan oxuyur"

**Prezident İlham Əliyevin hökumətin tərkibində ciddi dəyişiklik etməsi bir çox ekspertlər və ictimaiyyət nümayəndələri tərəfindən müsbət qiymətləndirildi. Bəs, ölkə müxalifətinin nümayəndələri necə, bu təyinatlar barəsində nə düşünürlər?**

**Ağ Partiyanın lideri Tural Abbaslı** bildirdi ki, indidən konkret fikir söyləmək çətindir: "Bu təyinatlara iki-üç aspektdən baxmaq lazımdır. Gəncləşdirmə baxımdan bu kabinetin tərkibinə baxsaq görərik ki, xeyli irəliləyiş var. Bu, sevindirici haldır. Belə bir təyinatı müsbət hal kimi qiymətləndirirəm. Ancaq, təbii ki, bu təyinatların nə nəticə verəcəyi onların fəaliyyətlərindən asılıdır. Nəzərə alsaq ki, nazirlərin, demək olar ki, heç bir müstəqil qərar vermə və siyasət yürütmə hüquqları yoxdur. Onların hamısı birbaşa birinci şəxsdən asılıdır. Ona görə də onların necə işləməsi prezidentin iradəsindən asılı olacaq. Əgər bu insanlar yenə də dünənə kimi olan sistemlə davam edəcəklərsə, fərq etməyəcək ki, postda oturanların yaşı neçədir. Çox istərdim ki, təyinatlarda adlar, yaşlar dəyişdiyi kimi, xalqla hakimiyyət arasındakı münasibətlər də yenilənsin. Bundan öncə də zamanına görə gənc adlar nazir təyin olunmuşdu və gördük ki, heç nə dəyişmədi. Ümid edirəm ki, yeni kabinet daha uğurlu olar və hakimiyyət də öz siyasi xəttini xalqa yönəlik siyasi xətt tutar".

**ADP sədri Sərdar Cəlaloğlu** isə hesab edir ki, gənclərin hakimiyyətə gətirilməsi əslində problemlər yarada bilər: "Faktiki olaraq ciddi heç bir dəyişiklik baş vermədi. Kadrların yerdəyişməsi ciddi dəyişiklik üçün zəmin yaratmır. Görünür, bu, ölkə ətrafında beynəlxalq situasiya ilə bağlıdır. Gənclərə gəlincə isə, dünyada bir neçə gənc lider var ki, hər kəsin başına bəladır. Şimali Koreyanın prezidenti 22-23 yaşında hakimiyyətə gəlib, bu gün də dünyaya meydan oxuyur. Bəşər Əsəd də 26 yaşında hakimiyyətə gəlib, bu gün törətdikləri göz önündədir. Siyasət 60-70 yaşlı insanların məşğuliyyət sahəsidir. Ona görə hansısa gəncin hakimiyyətə gətirilməsini müsbət qiymətləndirmirəm".



**REAL Partiyasının İdarə Heyətinin üzvü Natiq Cəfərli** bildirib ki, son 15 ili nəzərə alsaq ən köklü dəyişikliklər məhz bu il baş verdi: "Həm Nazirlər Kabinetində, həm də dövlət komitələrinin rəhbərliyinə gözlənilməz təyinatlar da oldu. İdarəetmə sistemində dəyişiklik olacaq, ya yox, bu sual açıq qalıb. Yəni səlahiyyətlərin və məsuliyyətlərin bölgüsü prinsipi, çox təəssüf ki, hələ formalaşmayıb. Yeni təyin olunan şəxslər arasında savadlı isimlər var. Yeni kadrların hansı formada işləyəcəyi böyük maraq yaradıb. Əgər köhnə sistemdə işləyəcəklərsə, o zaman bunun ciddi effekt verəcəyini düşünmək olmaz. Buraxılan səhvlərə, həmin sahədəki problemlərə görə birbaşa məsuliyyət yer alacaqsa, ən azından bunda ciddi dəyişikliklərin effektiv olacağını görə bilərik".

**KXCP sədrinin müavini Xəzər Teyyublu** düşünür ki, kadr təyinatı cəmiyyət tərəfindən çox yaxından izlənilir: "Kadr siyasətini kafi qiymətləndirirəm. Ölkədə proporsional seçki sistemi mövcud deyil. Parlament üsul-idarəsi olsaydı, siyasi partiyaların Azərbaycan hakimiyyəti uğrunda mübarizəsinin effekti olardı. Bu isə cəmiyyətimiz üçün fayda verərdi. Bu gün isə tək partiya hakimiyyətdədir. Onlar kimi təyin edirsə, özlərinə daha çox bəllidir. Düşünürəm ki, cəmiyyətdə də biganəlik hökm sürür. Cüzi dəyişikliklər oldu ki, bu da düşünürəm ki, Azərbaycanda hansısa inkişafın olacağına gətirib çıxarmayacaq".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 89 (6978) 25 aprel 2018

**Aprelin 24-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədov gündəliyin təsdiqindən sonra bir neçə deputatın yeni hökumətdə təmsil olunması ilə əlaqədar prezident İlham Əliyevə təşəkkür etdi. Eyni zamanda sədr vəzifə təyinatı alan deputatlara təbriklərini çatdırdı.**



# Ombudsman Milli Məclisə amnistiya üçün müraciət etdi

**Mətbuat Şurasının sədri Elmira Süleymanovanın illik hesabatını tənqid etdi:** “Görülən işlərdən söhbət açmaq əvəzinə, burada ümumi xarakterli köhnə məlumatlar, təkrar tövsiyələr yer alıb”

**Əli Məsimli:** “Təklif edirəm ki, 3 min dollara qədər borcu olan şəhid ailələrinin, 150 manat təqaüd alan pensiyaçıların banklara olan borcları bağlansın”

Bundan sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. İlk olaraq “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” qanun ikinci təsdiq olundu.

**Azərbaycanın İnsan haqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova** illik hesabatını təqdim etdi. E.Süleymanova bildirdi ki, vətəndaşların dövlət orqanlarına müraciətlərinə diqqətlə yanaşılması, məmurların öz səlahiyyətlərindən sui-istifadə etməsi hallarına son qoyması, insanların problemlərinin həllinə istiqamətlənmiş tədbirlər görülməsinə səy göstərilməsi, vətəndaşlarla münasibətdə etik davranış qaydalarına riayət edilməsinə diqqət gücləndirilməlidir. Məruzədə o da qeyd edilir ki, şikayətlərdə əks etdirilmiş halların yoxlanılması məqsədilə Müvəkkil tərəfindən aidiyyəti dövlət qurumlarına göndərilən sorğulara bəzi hallarda konstitusiya qanunu ilə müəyyən edilən müddətdə və mahiyyəti üzrə cavab verilməyib: “Bu da vətəndaşların hüquqlarının pozulmaqda davam etməsinə, habelə Müvəkkilə və digər mərkəzi dövlət qurumlarına təkrar şikayətlərə səbəb olub. Odur ki, hər bir vəzifəli şəxs və məmur öz işini müasir çağırışlara, yeni tələblərə və innovativ yanaşmalara uyğun qurmalıdır. Bütün səylər insan rifahının yüksəldilməsinə və sosial proqramların icrasına yönəldilməlidir”.

E.Süleymanova bildirdi ki, məktəbəqədər təhsil müəssisələrinin Təhsil Nazirliyinin tabeliyinə qaytarılmasını zəruri hesab edir. Ombudsman qeyd etdi ki, uşaq bağçalarında mövcud olan yerlərin sayı müvafiq ərazidə yaşayan məktəbəqədər yaşlı uşaqların sayına uyğunlaşdırılmalıdır: “Bəzən yerli icra hakimiyyətləri mövcud durumda məktəbəqədər təhsilə olan ehtiyacı düzgün qiymətləndirməyib, bağçaları maddi-texniki avadanlıq və tədris ləvazimatı, ixtisaslı kadrlarla təmin etməklə məktəbəqədər yaşlı uşaqların cəlb edilməsinə şərait yaratmaq əvəzinə, böyük ehtiyac duyulan belə müəssisələri ləğv edirlər”.

E.Süleymanova bildirdi ki, 2017-ci ildə Ombudsman Aparatına daxil olan bir sıra müraciətlərdə özəl tibb müəssisələrində müalicə və müayinənin təşkilində yol verilmiş ciddi pozuntular, qiymətlərin olduqca baha olması, müalicənin nəticəsiz qalması kimi hallar öz əksini tapıb. Ombudsmanın sözlərinə görə, həkim-xəstə münasibətlərinə ciddi yanaşılmalı, xəstələrin, o cümlədən həkim müalicəsindən ziyan çəkən pasiyentlərin hüquqlarının təmin edilməsi üzrə yeni qanunvericilik aktlarının qəbul edilməsi lazımdır.

**Müzakirələr zamanı deputat Tahir Kərimli** bəzi təşəbbüslərlə çıxış etdi. Bildirdi ki, ombudsman Elmira Süleymanova Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı ölkədə Amnistiya aktının qəbul edilməsi üçün Milli Məclisə müraciət edib: “Bu, çox yaxşı haldır”. T.Kərimli onu da bildirdi ki, heç bir təqsiri olmadan Azərbaycan vətəndaşları devalvasiya nəticəsində ziyana düşüblər. Ona görə də deputat ombudsmanın bu məsələ ilə bağlı təşəbbüs göstərməsini xahiş etdi.

**Mətbuat Şurasının sədri Əflatun Amaşov** isə bildirdi ki, məruzədə dolğun məlumatlar əksini tapıb: “Müsbət haldır ki, bu dəfə görülən işlər digər illərdəki görülən işlərlə müqayisə edilərək təhlillər aparılıb. Bunlar çox yaxşıdır. Buna görə də Elmira xanıma, məruzəni hazırlayanlara böyük təşəkkür düşür”.

Ardınca isə Ə.Amaşov məruzə barədə tənqidlərini dilə gətirdi: “Çox təəssüf ki, bu fikirləri məruzənin informasiya əldə etmək azadlığı bölməsi ilə bağlı söyləyə bilmirəm. Görülən işlərdən söhbət açmaq əvəzinə, burada ümumi xarakterli köhnə məlumatlar, təkrar tövsiyələr yer alıb. Mən ötən il müvəkkilin hesabatı müzakirə olunarkən bildirmişdim. Yenə də həmin fikrimin üstündə qalıram. Nə qədər ki, ombudsman məlum qanunun tələblərindən irəli gələn vəzifələri tam yerinə yetirə bilmir, belə də olacaq. Söz və ifadə azadlığının dərinləşməsi demokratik cəmiyyət quruculuğunun əsas şərtidir. Dövlət bu istiqamətdəki proseslərə hər zaman böyük önəm və dəstək verib. Belə olan halda Müvəkkilin informasiya əldə etmək haqqında qanundan irəli gələn tələbləri yerinə yetirmək resursunun olmaması təəccüblüdür. Artıq neçənci ildir ki, hesabatda ombudsmanın bu istiqamətdə strukturunun təkmilləşməsi, bu məqsədlə ştat və maliyyənin ayrılması üçün Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə müraciətindən bəhs olunur. Necə ola bilər ki, bu müraciətlər cavabsız qalsın? Məsələ ciddi şəkildə öyrənilməlidir. Məsələdə maraqlı olmayan kimdir, bunu bilməliyik. Hesab edirəm ki, bizlər parlament səviyyəsində məsələyə münasibət bildirməliyik. Bu, Elmira xanımın perspektiv fəaliyyətinə də dəstək olar. İstəyim odur ki, növbəti məruzədə ombudsmanın fəaliyyətində qeyd etdiyim bu məqamlar da yer alsın”.

**Bundan sonra məruzə səsə qoyularaq qəbul edildi.**

Milli Məclis “Peşə təhsili haqqında” qanun layihəsini üçüncü oxunuşda müzakirəyə çıxardı. **Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli** layihə barədə çıxışı zamanı bildirdi ki, layihədə əvvəlki oxunuşda həmkarlarının təklifləri nəzərə alınıb və yeniliklər edilib: “İkinci oxunuşdan sonra layihə üzərində aparılan təkmilləşdirmə işi sənəddə bəzi məqamları daha da dəqiqləşdirib. Oxşar məqamlar sistemləşdirilib, ümumilikdə layihə hüquqi cəhətdən daha dəqiq ifadə edilib. Hesab edirəm ki, bu layihə Azərbaycanda peşə təhsilinin inkişafına stimul verə biləcək məqamlara şərait yaradacaq”.

**Layihə səsə qoyularaq üçüncü oxunuşda da qəbul edildi.**

İclasda ədliyyə sisteminə həsr olunan xüsusi medal təsis edilməsi də müzakirəyə çıxarıldı. **“Azərbaycan ədliyyəsinin 100 illiyi (1918-2018)” adlı layihəni hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli** təqdim etdi. Layihəyə əsasən, bu medalla öz vəzifələrini nümunəvi yerinə yetirən, qüsursuz fəaliyyəti ilə fərqlənən ədliyyə orqanları əməkdaşları, hakimlər, ədliyyə və məhkəmə sisteminin inkişafına töhfə vermiş və ədliyyə orqanları ilə səmərəli əməkdaşlıq edən digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif olunur.

**Deputat Fərəc Quliyev** dedi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı Milli Məclisdə də işlər görülməlidir: “Milli Məclis bütün strukturların ağırlığını üzərində çəkən qurumdur. Bəzən deputatlar deyir ki, filan strukturların şöbə müdirlərinin xidməti avtomobilləri var, amma parlamentdə yoxdur. O zaman qəzetlərdə yazırlar ki, Milli Məclisin deputatları maşın istəyirlər. Biz deyəndə ki, maaşlar filan nazirliklərin işçilərindən, dünyanın müxtəlif ölkələrinin parlamentinin deputatlarından aşağıdır, deyirlər ki, başqasını düşünmürlər, ancaq özlərini düşünürlər. Burada isə maddi məsələ yoxdur”.

Deputat 100 illiklə bağlı Milli Məclisin xatirə medalının olmasını da faydalı saydı: “Burada oturan adamların bu medalla təltif olunması yerinə düşər. Mən müəyyən nazirliklərə bağlı qəbul edilən xatirə medallarını dəstəkləyirəm. Amma hesab edirəm ki, Milli Məclisdə də bununla bağlı işlər aparılmalıdır”.

F.Quliyevin təklifinə cavab olaraq **Milli Məclisin I vitse-spikeri Ziyafət Əsgərov** bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı Milli Məclisdə bayram tədbiri keçiriləcək: “Bu tədbirə bir sıra qonaqların dəvət olunması nəzərdə tutulur. Düşünürəm ki, medalın təsisi ilə bağlı qaldırdığınız məsələyə bu çərçivədə baxılacaq”.

“Müflisləşmə və iflas haqqında” qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi barədə **komitə sədri Ziyad Səmədzadə** məlumat verdi. Layihə borclunun ləğv edilməsinə maksimum yol verməmək üçün sağlamlaşdırma tədbirlərinin tətbiqinə imkanlar və mexanizmlər yaratmaq məqsədilə hazırlanıb. Dəyişikliklərdən biri borclunun aktivlərinin satılması ilə bağlıdır. Belə ki, dəyişikliyə əsasən, dəyəri borclunun aktivlərinin 5% və daha çox hissəsini təşkil edən aktivlərin satılması əmlak inzibatçısı tərəfindən hazırlanan və bu qanunun 48-ci maddəsinin 5-ci hissəsində müəyyən edilmiş qaydada kreditorların yığıncağında təsdiq edilən satış planına uyğun olaraq açıq hərrac yolu ilə və bu qanunun 26-cı maddəsində müəyyən edilmiş hallar olduqda digər üsullarla həyata keçirilir. Dəyəri borclunun aktivlərinin 5%-indən az hissəsini təşkil edən aktivlərin satılması əmlak inzibatçısı tərəfindən bu qanunun tələbləri nəzərə alınmaqla kreditorlar yığıncağının razılığı olmadan həyata keçirilə və ya satış planına daxil edilməsi təklif edilə bilər.

**Layihə qəbul edildi.**

“Milyonlarla insan 2015-ci ilin iki devalvasiyası nəticəsində, heç bir günahları olmadan, çox ağır zərbə alıblar”.

**Deputat Əli Məsimli** bunu “Müflisləşmə və iflas haqqında” qanuna dəyişikliklərin müzakirəsi zamanı bildirdi. O, banklardan götürülən dollar kreditləri ilə əlaqədar yaranmış problemin aradan qaldırılması üçün tədbirlər görməyə də çağırdı: “Bu yaxınlarda prezident gözəl bir fərman imzaladı, vətən uğrunda şəhid olanların ailələrinə 11 min manat vəsait ayrılması barədə qərar verdi. Elə olmasın ki, vətən uğrunda şəhid olanlara ayrılan vəsait bank kreditlərinə ödənilsin”. Deputat 3 min dollara qədər borcu olan insanların, şəhid ailələrinin, pensiyaçıların durumunun daha ağır olmasına diqqət çəkdi: “Artıq elə bir vəziyyətdədir ki, borclarını qaytara bilmirlər”.

Ə.Məsimli bildirdi ki, hər hansı bankın lisenziyası alınırsa, sahibkar bundan əziyyət çəkir: “Bir müəssisəni sağlamlaşdırırıq, amma nəticədə minlərlə sahibkarı bankrot vəziyyətdə qoyuruq. Bu yaxınlarda Şəkidə bir sahibkar belə problemlə üzləşib. "Dəmir bank"ın lisenziyası alınıb və sahibkarın orada olan pulu almasında problem yaranıb. Əgər bankın lisenziyası alınıbsa, onu başqa banka keçirsinlər. Bu, yüzlərlə iş adamının müflis olmasının qarşısını ala bilər. İkinci məsələ isə, biz nə vaxt Azərbaycan vətəndaşlarının maliyyə sağlamlığı ilə məşğul olacağıq? 2015-ci ildə səhvlər buraxılmaqla həyata keçirilən devalvasiya nəticəsində xeyli insan ziyan çəkdi. Onlara nə edəcəyik? Təklif edirəm ki, 3 min dollara qədər borcu olan şəhid ailələrinin, 150 manat təqaüd alan pensiyaçıların banklara olan borcları bağlansın".

“Məşğulluq haqqında” qanun layihəsi barədə isə **əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli** məlumat verdi. Bildirdi ki, qanun layihəsi 5 fəsil, 34 maddədən ibarətdir. Komitə rəhbəri dedi ki, sözügedən qanun Azərbaycanda bazar münasibətlərinin inkişafı, bütün səviyyələrdə aparılan iqtisadi, sosial, institusional və siyasi islahatların uğurlu nəticələri işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi sahəsində yeni tələbləri müəyyən edir: “Belə ki, yeni sənəddə işaxtaran və işsiz şəxslərin müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınması qaydası tamamilə yenidən müəyyən edilib. Ümumiyyətlə, qeydiyyata alınma prosedurunun elektron qeydiyyat üzərində həyata keçirilməsi nəzərdə tutulur”.

**İclasda iştirak edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev** qanun layihəsinin əhəmiyyətindən danışdı. Bildirdi ki, ilk dəfə olaraq işaxtaran və işsiz şəxslərə əvvəlcə vakansiya bankından münasib işin onlar tərəfindən seçilməsi hüququ verilir: “Onlar bu hüquqdan istifadə etmədikdə isə, sistem tərəfindən bu edilir. Münasib iş təklifi üzrə müddət isə 11 gündən 5 günə endirilir”.

**Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda konseptual şəkildə səsə qoyularaq qəbul edildi.**

**❑ Elşad PAŞASOY, “Yeni Müsavat”**



# "Quska"nın Türkiyədə həbsi ilə bağlı bilinməyənlər - şok detallar

## İstintaq Hüseyn Adbullayevin Bakıdakı əlaqələrini və "kuratorlarını" axtarır

**Türkiyədə həbs olunaraq Azərbaycana gətirilən sabiq deputat, "Quska" ləqəbli Hüseyn Abdullayev yaxın günlərdə istintaq təcridxanasına köçürüləcək. Musavat.com bildirir ki, bu haqda onun vəkili Ruhid Əkbərov məlumat verib. Vəkil deyib ki, müvəkkili Azərbaycana gətiriləndən sonra istintaq hərəkətləri gerçəkləşdirilməyə başlayıb. Onu vergi cinayətləri ilə bağlı sorğu-sual edirlər. Hüseyn Abdullayev barəsində 6 il əvvəl, 2012-ci ildə Cinayət Məcəlləsinin 213-cü - külli miqdarda vergidən yayınma maddəsi ilə cinayət işi başlanıb. Həmin vaxt sabiq deputat ölkədən qaçdığı üçün barəsində həbsli axtarış elan olunmuşdu. Onu bir müddət beynəlxalq polis təşkilatı - İnterpol xətti ilə də bütün dünyada axtarırdılar. Sonradan Hüseyn Abdullayevin adı beynəlxalq polis təşkilatının axtarış siyahılarından çıxarıldı.**

Azərbaycandan qaçaq düşəndən sonra Almaniyada məskunlaşan Hüseyn Abdullayev vəsaitlərinin böyük qismini bu ölkəyə transfer edərək, bizneslə məşğul olmağa başlayıb. Çoxsaylı evlər alıb, təmir etdiriləndən sonra onları kirayəyə verən, ayrıca, eyni işi Avstriyada da həyata keçirən Hüseyn Abdullayev bu iki ölkədə kiçik zavodlar da açıb. Barəsində beynəlxalq axtarış dayandırılandan sonra isə sabiq deputat bir sıra Qərb dövlətləri ilə yanaşı, Türkiyəyə də ayaq açıb. Orada da özünün biznesini yaratmağa başlayıb. Musavat.com-un əldə etdiyi məlumatlarda deyilir ki, H.Abdullayev Türkiyədə daha çox inşaat sektoruna yatırım edib və artıq bu ölkədə özünün ofisini qurub. Onun ofisində həm də Hüseyn Abdullayevin sosial şəbəkə hesablarının idarə edilməsini həyata keçirən qrup da fəaliyyət göstərir.

Hüseyn Abdullayev Almaniya hökumətinin verdiyi pasporta o qədər güvənirmiş ki, özünün hansısa bir ölkədə həbs olunaraq Azərbaycana verilə biləcəyini ağlına da gətirmirmiş. O, ötən ilin yay tətilini anası və digər yaxınları ilə bərabər Ağdəniz sahillərindəki otellərdən birində keçirdib. Müntəzəm olaraq Türkiyəyə gedib-gələn Hüseyn Abdullayev bu ölkədə Azərbaycandan gələn tərəfdaşları və ölkəmizdəki "kuratorların" adamları ilə görüşür, təlimat alır, ya da özünə yaxın tərəfdarlarını qəbul edərək, müvafiq təlimatlar verirmiş. Təbii ki, bu haqda Azərbaycan hakimiyyətinin xəbəri olub. Lakin hər hansı bir skandal yaratmamaq üçün Azərbaycan istintaq orqanları onu Türkiyədə həbs etməyiblər. O zamana qədər ki, Avropada yeni peyda olan "söyüş müxalifəti"nin H. Abdullayevlə və onun Bakıdakı "kurator"larla birbaşa əlaqələri üzə çıxıb. Azərbaycan xüsusi xidmət orqanları müəyyən ediblər ki, Avropadakı "söyüş müxalifəti"ni də, Əli Kərimlinin Avropa ölkələrindəki qruplarını da "Quska" ləqəbli Hüseyn Abdullayev üzərindən maliyyələşdirir və koordinasiya edirlər. Bu koordinatorlardan biri Azərbaycanın sabiq baş naziri Abbas Abbasovdur. İddialara görə, digər bir gizli iqtidar düşməni Avropa ölkələrindən birində səfir vəzifəsində çalışan tanınmış simadır. Bu qruplaşmanın mərkəzi isə Bakıda yerləşirmiş. Musavat.com belə məlumat əldə edib ki, hazırda istintaq H.Abdullayevin üzərindən həyata keçirilən bu sirli çevrəni müəyyən etmək üçün ciddi istintaq hərəkətləri aparır.



Hüseyn Abdullayevin Türkiyədə həbs olunması təfərrüatları da maraqlıdır. Bəziləri istintaq sirri olduğu üçün bunu açıqlamırıq. Lakin onu bildirək ki, H.Abdullayev çox "məşhur" əyləncə mərkəzlərindən birində həbs olunub. Həmin yer Türkiyənin çox ünlü ticarət mərkəzi kompleksi nəzdindədir. Həmin nəhəng kompleksin üstü isə yaşayış binalarıdır və orada H. Abdullayevin mənzili var. Azərbaycan istintaq orqanlarının, Türkiyədəki həmkarları ilə bərabər keçirtdiyi əməliyyat 3 gün çəkib və nəticədə H.Abdullayevi məhz qeyri-iş günündə saxlayıb, Bakıya gətirmək qərara alınıb. İddialara görə, bunu özünün də səbəbi var: "Filan səfirlik həmin gün işləmir və bu səbəbdən də adamları olan "Quska"nın yardımına yetişə bilməzdi"...

Mənbə əmindir ki, Hüseyn Abdullayev çox tezliklə ötəcək: "Bundan əvvəl, qısamüddətli həbsi dönəmində o, özünü çox biabırçı aparıb. Ağlayır, yalvarır, saatlarla qışqırır, kömək istəyirdi. Belə adamların bərkdə əli yoxdur və tezliklə Hüseyn Abdullayev istintaqla əməkdaşlığa gedəcək"... Bu da o deməkdir ki, indiki hakimiyyətin müəyyən eşelonunda yer alan bəzi məmurların, eləcə də iqtidardan uzaqlaşdırılan bir sıra oliqarxların "başları" gedəcək. Onlardan biri də sabiq təhlükəsizlik naziri Eldar Mahmudovdur.

Eldar Mahmudov hələ nazir olarkən H.Abdullayevin əsas kuratoru olub. Sirr deyil ki, Hüseyn Abdullayev 2005-ci ildə parlamentə Eldar Mahmudovun siyahısı üzrə düşə bilmişdi. Onun parlamentdə hakimiyyətin qüdrətli məmurlarına qarşı məlum çıxışlarının tezislərinin də Mahmudovun nazirliyində hazırlandığı iddia olunur. 2007-ci ildə həbsindən sonra onun "yüngül srok"la azadlığa buraxılmasında da bu gün kuratoru kimi adıçəkilən Eldar Mahmudovun birbaşa rolu olub. Bundan başqa, Hüseyn Abdullayevin Qərb dövlətlərindən birinin ölkəmizdəki səfiri ilə də münasibətləri, əlaqələri haqda bilgilər var. Sabiq deputatın həmin səfirin derektivləri ilə çıxışlar etdiyi də iddia olunur. Mümkündür ki, Hüseyn Abdullayevə qarşı yaxın zamanlarda vergi cinayətləri ilə yanaşı, digər ittihamlar da irəli sürüləcək. Onun cinayət işində sürpriz isimlərin olacağı da dolaşan xəbərlər sırasındadır.

"Yeni Müsavat"a daxil olan digər bir məlumata görə, Hüseyn Abdullayev xaricdə olan narazı elektoratla da yaxınlıq etmək, onlara maliyyə dəstəyi vermək kimi hərəkətləri konkret tapşırıqla icra edib (O, maliyyə dəstəyi verən həmin kəsimi özünün çevrəsində "çuşka" adlandırıb, onların bir işə yaramadıqlarını deməkdən də çəkinməyib). Bakıda ona kuratorluq edən Eldar Mahmudovla Almaniyada 2014-cü ilin sonlarında görüşməsi də bir faktdır. Eldar Mahmudov hələ vəzifədə olarkən Hüseyn Abdullayevlə Almaniyada görüşüb müzakirələr aparıb, narazı qüvvələrlə iş aparılması ətrafında fikir mübadiləsində bulunub. Mümkündür ki, Eldar Mahmudovun da adı Hüseyn Abdullayevin cinayət işi üzrə fiqurantlar sırasında çəkiləcək...

Məsələnin maraqlı tərəfi budur ki, vaxtilə xalqa və indiki iqtidarın müxaliflərinə qarşı bir sıra cinayət əməli törədən Hüseyn Abdullayev Avropaya yerləşdikdən sonra siyasi müxalifətlə, xüsusi ilə də Milli Şura və Əli Kərimli ilə əlaqələr yaradıb, onlara ciddi maliyyə dəstəyi verib. Zamanında iş adamlarına, jurnalistlərə qarşı zorakılıq edib cinayətlərə imza atan Hüseyn Abdullayevin bu cinayətlərə görə də mühakimə ediləcəyini gözləmək olar.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Hüseyn Abdullayevi müdafiə edərsizmi?

### **Tural Abbaslı:** "Hüseyn Abdullayev quldur olub"
### **Əli Orucov:** "Hər kəs tutduğu yolda səhv edə bilər"
### **Mirvari Qəhrəmanlı:** "Niyə azadlığa buraxırdınız?"

**Türkiyədə saxlanılaraq Azərbaycana ekstradisiya edilən biznesmen Hüseyn Abdullayev ("Quska") ətrafında gedən proseslər bir çox məsələləri aktuallaşdırıb. Zamanında hakimiyyətin "vuran əli" olan bu şəxsi demokratik düşərgənin, hüquq müdafiəçilərinin müdafiə edib-etməyəcəkləri suallar yaradır.**

**AĞ Partiya başqanı Tural Abbaslı** "Quska"nın müdafiəsini doğru saymır: "Hələ Hüseyn Abdullayev prezidentliyə namizəd olacağını bildirəndə onun barədə fikirlərimi mətbuata bildirdim. Mən o zaman da qeyd etmişdim, bu gün də o fikirdəyəm ki, Hüseyn Abdullayev zamanında bu hakimiyyətə xidmət edən quldur olub. Mənim üçün o hələ də dinc etiraz aksiyalarına çıxan qızı, qadını, yaşlını, gəncini döydürən quldur kimliyini dəyişməyib. Əslində köhnə müxalifətin xalq arasında etibarını itirmə səbəblərindən biri də zamanında hər cür cinayəti və quldurluğu törətmiş insanlar siyasi mövqelərini dəyişən kimi onları müdafiə edib və hətta minlərlə fədakar, mübariz, həyatlarını bu yola xərcləmiş müxalifətçilərin başı üzərinə rəhbər kimi gətirmələridir. Əminəm ki, zamanında hakimiyyətin ona yaratdığı şəraitdən istifadə edərək xalqdan taladığı pulların xətrinə kimlərsə yenə Abdullayevi müdafiə etməyə, onu siyasi məhbus elan etməyə, hətta müxalifət liderlərindən biri kimi təqdim etməyə çalışacaq. Bəli, bəziləri bəyan edəcəklər ki, biz Abdullayevin keçmiş cinayətlərini danmırıq və bəraət qazandırmırıq, ancaq biz onun pozulan hüquqları uğrunda mübarizə aparırıq. Belə bəyanatları da səmimi hesab etmirəm. Odur ki, biz AĞ Partiya olaraq cinayətkarların cəmiyyət arasında təmizlənməsi prosesində iştirak etməyəcəyik. Bu gün biz dünənki cinayətkarı öz sıralarımıza sevinclə qatsaq, bu digərlərində də cəzasızlıq hissi yaradacaq. Biz o düşüncədəyik ki, hər kəs etdiyinin qarşılığını almalıdır".

**AMİP katibi Əli Orucov** fərqli düşünür: "Hüseyn Abdullayev qoçu dəstələrini özbaşına saxlamırdı. Sonradan Abdullayev ona cızılan çərçivəni keçdi və göstərdiyi "xidmətlərinin" müqabilində az olduğunu zənn edərək daha çox pay almaq, vəzifə tutmaq həvəsinə düşdü. Amma iqtidar ambisiyalı və iddiaları çox böyük olan şəxsləri pis cəzalandırır. Müxalifət istintaqın obyektiv, qanuni şəkildə həyata keçirilməsində maraqlıdır. Hər kəs həyatda da, fəaliyyətində də, tutduğu yolda da səhv edə bilər".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** hazırda sabiq deputatın müdafiəyə ehtiyacının olmadığını söylədi: "O təzə ölkəyə gətirilib, məhkəməsi başlanmalıdır. Rəsmi məlumatda vergidən yayınmaya görə onun "İnterpol" xətti ilə axtarışa verildiyi bildirilib. Belə bir sual çıxıb ki, əgər vergidən yayınması var idisə, o zaman niyə azadlığa buraxırdınız? Bu sualın cavabı hər kəsə maraqlıdır. Əvvəlcədən heç kəs deyə bilməz ki, onu müdafiə edirəm, ya yox. Dəqiq səbəblər getdikcə ortaya çıxacaq. Məhkəmə başlayanda prosesin monitoringini hüquq müdafiəçiləri apara bilərlər. Müxalif partiyaları adətən öz üzvlərini müdafiə edirlər. Hüseyn Abdullayevin Avropadakı əlaqələri heç kəsdə şübhə doğurmur. Bu baxımdan müxalifətin ehtiyatlı davranacağını ehtimal etmək olar. Sübutlar tam şəkildə ortaya çıxandan sonra açıq mövqelər ortaya qoymaq mümkün olacaq. Cinayəti sübut olunmayan şəxsi cinayətkar saymaq olmaz. Təəssüf ki, gündə biri özünü hüquq müdafiəçisi kimi qələmə verir. Belə şəxslər onu müdafiə etmək üçün sıraya düzüləcəklər. 25 ildir bu işlə məşğulam, son 2-3 ildə cəsarətlə özümü hüquq müdafiəçisi adlandırıram. Hüseyn Abdullayevin imkanlı biridir. Ola bilər ki, hökumətdən də kimsə dolayısı ilə onu müdafiə etsin. Hüseyn Abdullayevin imkanlarından istifadə edənlər də zamanla ortaya çıxacaq. Özünü hüquq müdafiəçisi sayan şəxs vəsaitə göz dikməz. İstənilən halda onun hüquqları pozularsa, müdafiə olunması vacibdir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Üçlük məhkəməsinin yeri görünür

Zamin HACI
zaminhaci@gmail.com

"Vəkil, məhkəmədən çəkil"
*(administrasiyadan yeni qafiyə)*

**Baş prokurorluğun göstərişinə əsasən, daha 2 vəkilin fəaliyyəti dayandırılmışdır. Əsabəli Mustafayev və Nemət Kərimli daha çox müxalifətçilərin müdafiəçisi olaraq tanınırdılar, hətta Əsabəli bəy Avropa Məhkəməsində belə işlərdən yüzdən çoxunu udmuşdu. Yəni camaatı burda müdafiə eləməyə imkan verilməsə də, xaricdə iqtidarı cərimələtdirə bilirdi. Böyük ehtimalla bu iki vəkili elə Avropa Məhkəməsində udduqları işlər üzündən cəzalandırdılar. Çünki pul bizdə ən vacib şeylərdən sayılır. İqtidar pul işində heç kəsə aman vermir, onu azacıq ziyana salan şəxsə də qəzəbi sonsuzdur. Yadınıza salın: MTN və Beynəlxalq Bank darmadağın ediləndə onların hərəkətinə obrazlı şəkildə "maliyyə xəyanəti" adı qoyulmuşdu. Bu bizdə, hətta deyərdim, vətənə xəyanətdən ağır cinayət sayılır.**

Yeganə sevindirici hal odur ki, vəkillərin işinə cəmi 1 illik qadağa qoyulubdur, növbəti Novruz bayramında Əsabəli bəy və Nemət bəy Şuşada... üzr istəyirəm, məhkəmədə müdafiəçi ola biləcəklər (Qınamayın, adam "Növbəti Novruzda Şuşada..." cümləsini nə qədər eşidər?). Halbuki klassikimizin tövrüylə desək, goburnat istəsə, pristavı döyə bilərdi. Yəni iqtidar istəsə, bu iki vəkilin vəkilliyinə nəinki ömürlük quş qoyardı, hətta onları elə müdafiə elədikləri adamların kamerasına salardı. Bizdə bu, çox asan prosedurdur. Həmişə üzə durmağa bir şəxs, şahidlik eləməyə üç-dörd namərd, hadisə yerindən tapılmağa həsrət 4-5 kilo hal maddəsi və ya Xirosimanı partlatmaq gücündə yandırıcı butulkalar, qanunsuz cinayət işini makinada çap edəsi müstəntiq qırığı, sonra bu cırıq-curuq və 37-ci ildən qalma naftalin qoxulu əskilərdən adama məhkum donu biçməyə hazır məhkəmə-prokuror cütlüyü tapılır. Yenə klassikimizdən sitat gətirsək, bir molla, üç manat pul, bir kəllə qənd, vəssalam, şüttamam. Adama elə toy tutursan ki, yeddi arxa dönəni oynayır. Bu mənada, qərarın müvəqqəti olması səbəbilə respublika ictimaiyyəti adından dərin minnətdarlığımızı bildiririk və söz veririk ki, payız tətilini Sabirabadın Cavad kəndində pambıq yığımında keçirəcəyik.

Ancaq bir iş var ki, artıq müxalifətçiləri müdafiə eləməyə vəkil demək olar qalmayıbdır. Hərəsi bir yolla sıradan çıxarılandan sonra bu adamlar nə eləsinlər? Bəlkə güllələnmə cəzasını və məşhur sovet praktikası olan "troyka" (üçlük) məhkəmələrini bərpa edək? Həmin üçlük məhkəmələri 1930-cu illərdə yaradılmışdı və hər hansı şəxsi tutanda qərarı 3 nəfərin iclası çıxardırdı: prokuror, Kommunist Partiyasının yerli sədri və NKVD əməkdaşı. İndiki terminlə yazım, gənclər üçün anlaşıqlı olsun: elə bil səni "Məhsul" stadionunda yaxşı oynamadığın üçün tutub gətiriblər Yasamal məhkəməsinə. Burada Yasamal YAP sədri, Yasamal polisinin rəisi və Yasamal prokuroru üçlükdə yığışıb sənin təpənə paslı güllə çaxılması qərarını imzalayırlar. Gördüyünüz kimi, "troyka" məhkəməsinin tərkibində, ümumiyyətlə, vəkil deyə bir insan, peşə növü nəzərdə tutulmurdu. Bəlkə indi kiməsə bu, lotu Stalinin hansısa zarafatı kimi gələr, ancaq ortada rəsmi, tarixi sənədlərlə təsdiqlənmiş arxiv məlumatları vardır: 1936-cı ilin 1 oktyabrından 1938-ci ilin 1 noyabrınadək troyka məhkəmələri 1 milyon 565 min 41 nəfəri həbs edibdir. Onların 668 min nəfəri - təxminən yarısı güllələnmişdir. Qalanları da əsasən 8-10 il həbs, sürgün cəzaları alaraq Sibirin, Uzaq Şərqin amansız təbiətində can vermişlər.

Hətta o məhkəmələrin "üçlük" adlanması da bəzən formal olurmuş, əslində iki nəfər qərar çıxarırmış. Belə NKVD məhkəmələrinə "dvoyka" (ikilik) deyirmişlər. Udmurtiya Muxtar Respublikasında isə cəmi 1 nəfərdən ibarət... "troyka" məhkəməsi olub.

Bu faktları həm də ölkəmizdəki bəzi SSRİ aşiqlərinə xatırlatma olaraq yazdım, çünki qarşıdan 28 aprel - Azərbaycanın rus-bolşevik ordusu tərəfindən işğalının ildönümü gəlir, adətən belə günlərdə həmin aşiqlər aktivləşirlər.

# Ermənistanda kritik gün - bu gün inqilabın taleyi həll olunur

## Erkən parlament seçkilərinədək işğalçı ölkənin müvəqqəti baş nazirinin adı bu gün bəlli olmalıdır; İrəvanda həlledici danışıqlar başlayır; Moskvanın adamı keçməsə, sürprizi nə olacaq? Rusiyalı ekspertlərdən ilginc proqnoz və xəbərdarlıqlar...



**Bu gün Ermənistan üçün, daha dəqiqi, xunta rejiminə qarşı mühüm qələbə qazanmış inqilabi hərəkat üçün kifayət qədər kritik gündür: parlament ölkənin müvəqqəti baş nazirini müəyyən etməlidir. Ona görə müvəqqəti ki, srağagün müxalifət lideri, qərbyönlü kimi tanınan Nikol Paşinyan bəyan edib ki, xalqın adamı olacaq yeni baş nazir dəqiqləşəndən sonra növbədənkənar parlament seçkiləri keçirilməlidir. Paşinyanın elan etdiyi "Yol xəritəsi"ndə ikinci bənd budur.**

Odur ki, bu günə nəzərdə tutulan iqtidar-müxalifət danışıqları təkcə yeni baş nazirin deyil, bütövlükdə aprel inqilabının taleyinə aydınlıq gətirmiş olacaq. Diqqətçəkicidir ki, kritik gün ərəfəsində Rusiyanın baş naziri Dmitri Medvedev Ermənistanın baş nazirinin 1-ci müavini, Rusiyanın adamı kimi tanınan Karen Karapetyanla zəngləşərək ölkədəki situasiyanı müzakirə edib. Aydındır ki, Moskva baş nazir postunda Karapetyan kimi birisini görmək arzusundadır, nəinki qərbyönlü şəxsi.

*****

Qeyd edək ki, indiki parlamentdə Sərkisyan tərəfdarları - hakim Respublikaçılar Partiyasının təmsilçiləri üstünlük təşkil edir və onlar asanca Rusiyanın adamını təsdiq edə bilərlər. Lakin Ermənistanda inqilabi bir situasiya hökm sürdüyü üçün müxalifət razılıq verməsə, parlament Kremlin adamını təsdiqləməyə risk etməz.

O halda Rusiyanın cavabı, yaxud gedişi, sürprizi nə olacaq? Bu, çox maraqlıdır. Hərçənd, yeni baş nazir, yəqin ki, müvəqqəti olacaq, seçkilərədək işləyəcək. İstənilən halda onun personası inqilabi hərəkatın məntiqi sonluğa çatması baxımından az önəm kəsb edəmir və bunu Kreml, Putin də yaxşı bilir. Əgər o, qərbyönlü müxalifətin adamı olacaqsa, demək ki, erkən seçkilərdə də elə o və ya onun arxasında duran siyasi qüvvə qalib gələcək.

*****

Bizi, Azərbaycanı isə, təbii ki, ən çox işğaldakı Qarabağın, digər torpaqlarımızın taleyi, sülh danışıqların aqibəti maraqlandırır. Politoloqların bu xüsusda şərhləri maraq doğurur.

Məsələn, **Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** hesab edir ki, ümumiyyətlə, Sərkisyanın istər Qarabağ klanı idarə etsin, istərsə də ermənilər özləri, İrəvanın strategiyası kökündən səhvdir: "Regionda balaca Ermənistan güclü ölkələrin qarşısına çıxa bilməz. Yəni reallıqda onlara imkan verilsə, Azərbaycanla sülhə gələrlər. Çünki ciddi şəkildə baxşa düşürlər ki, Azərbaycan torpaq məsələsində güzəştə getməyəcək. İkincisi, Azərbaycan siyasətinin əsas istiqaməti işğal olunmuş torpaqların azad etməkdir. Reallıq belədir və bunu anlamadırlar. Üçüncü amil isə odur ki, Türkiyə məsələdə Azərbaycanın yanındadır. Nəhayət, ən əsası, Ermənistan Rusiyaya bir müttəfiq kimi lazım deyil".

Azərbaycanın Dağlıq Qarabağ məsələsində prinsipial mövqeyi bəlli. Ən əsası, bu mövqe Ermənistanınkından fərqli olaraq, sırf beynəlxalq hüquqa söykənir. Demək, Qarabağ məsələsində irəliləyiş olması üçün öncə işğalçı tərəf strategiyanı dəyişməli, öz mövqeyinə ciddi düzəliş eləməli, destruktivlikdən konstruktivliyə köklənməlidir. Yox, yenə ənənəvi, radikal Qarabağ siyasəti davam etdiriləcəksə, o zaman erməni toplumunda haqlı sual yaranacaq ki, Sərkisyan rejimini devirməyə, inqilab eləməyə dəyərdimi?

Ənənəvi Qarabağ siyasətinin erməni xalqına gətirdiyi bəlalar isə ortada. Ona ən böyük zərbəni məhz kriminal Sərkisyan rejimi, "Qarabağ klanı" vurdu. İndi təzədən bu siyasətə qayıtmaq, yaxud onu davam etdirmək, bundan da betəri, daha radikal kurs götürmək, sadəcə olaraq, erməni cəmiyyətinin iztirablarını artıracaq, böyük sülhü deyil, böyük müharibəni qaçılmaz edərək yaxınlaşdıracaq, faktiki Ermənistan adlı kvazi-dövlətin suisidini tezləşdirəcək.

Səfalətdən, müharibə izolyasiya vəziyyətindən, gənc əsgər tabutlarından təngə gələn erməni xalqına bu yol artıq lazım deyil. Bu yol artıqlaması ilə, bütün mümkün itkiləri ilə keçilib. İndi yalnız bir yol qalır - Azərbaycan və Türkiyə ilə dil tapıb 30 illik siyasi-iqtisadi bataqlıqdan, ağır blokada vəziyyətindən çıxmaq. İnqilab müəllifləri bunu bacaracaqmı?

*****

Ümid eləmək qalır ki, Dağlıq Qarabağ məsələsində daha praqmatik mövqeyi ilə seçilən, Türkiyə və Azərbaycanla tezliklə barışın tərəfdarı olan eks-prezident Levon Ter-Petrosyana yaxınlığı ilə tanınan Paşinyan və silahdaşları yekun etibarilə onun tövsiyələrini ciddiyə alacaq, Ter- Petrosyanın vaxtilə söylədiyi məşhur fikri diqqətə alacaqlar. 1998-ci ildə o demişdi: "Ermənistan indi ona təklif ediləni götürməsə, sonra yalvaracaq. Çünki Azərbaycan güclənəcək".

Artıq həmin zaman - Azərbaycanın işğalçı ölkədən iqtisadi, hərbi baxımdan qat-qat üstün olduğu zamandır.

Bu da maraqlıdır ki, Serj Sərkisyanın istefasından az sonra Levon Ter-Petrosyana ilk baş çəkən Dağlıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyan olub. Məxfi görüşün detalları açıqlanmır, ancaq şübhə yoxdur ki, hazırda təzədən ölkənin siyasi gündəminə qayıdan Ter-Petrosyanla söhbətdə əsas diqqət Qarabağ mövzusuna ayrılıb.

*****

Rusiya mediasında da Ermənistanda aprel inqilabı ilə bağlı şərhlər gedir. Məsələn, "Yeni Müsavat"ın məlumatına görə, Rosbalt.ru nəşrində dünən getmiş məqalədə deyilir: "Ermənistandakı qəfil inqilabi hadisələrə Kremlin hansı reaksiyasını gözləmək olar? Nə qədər ki, Gümrüdəki rus hərbi bazasını çıxarmaq tələbi olmayıb - Ermənistan üçün heç bir. Tələb ola bilərmi? Ola bilər. Heç olmasa, Rusiyanı daha yaxşı "sağmaq" üçün. Necə ki, Qırğızıstanda belə olmuşdu. Moskva üçün isə nəticələr qəmli ola bilər. O sadə səbəbdən ki, Rusiya hakimiyyəti bütün xarici təhdidləri özünün daxili siyasi düşmənlərin üzərinə yükləməyə artıq vərdiş edib. Belə görünür ki, Rusiyanın "5-ci kolon"ları üçün çətin günlər başlayıb".

Müəllifə görə, Ermənistandakı son hadisələr Kremlin Qərb dünyası ilə onsuz da gərgin olan qarşıdurma spiralını bir az da sıxmış olacaq: "İstənilən halda Ermənistandakı inqilaba münasibəti Rusiya lideri müəyyən və elan eləməlidir, nəinki Medvedev... Əlbəttə ki, Ermənistandakı geosiyasi bardak Suriyadakı qələbəni daha arzuolunan və bahalı edəcək - hansı qələbəyə ki, belə görünür, Moskva özünün sonuncu resurslarını da əsirgəmir".

*****

"Ermənistanda rəngli inqilab qalib gəldi. Bəs sonra? Baş nazirin səlahiyyətlərini icra edən Karen Karapetyanın arxasında siyasi partiya yoxdur. Erkən parlament seçkilərində əksər mandatları indiki müxalifət partiyaları qazanacaq. Onlar yeni hökumət formalaşdıracaq. İstefaya gedən Serj Sərkisyan da, görünür, parlamentdə müxalifət lideri olacaq". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri isə rusiyalı tanınmış politoloq, prezident Putinin səlahiyyətli nümayəndəsi sayılan Sergey Markov deyib.

Onun sözlərinə görə, yeni hökumətin xarici siyasət kursu, yəqin ki, ABŞ-ın nəzarətində olacaq: "O ABŞ ki, çevrilişi aktiv şəkildə müdafiə edib. Qiyamın başçısı Nikol Paşinyan dəfələrlə bəyan edib ki, Ermənistan Avrasiya Birliyindən çıxmalıdır. Onun hərəkatı da elə "çıxış" ("Yelk") adlandır. Bütün anti-Rusiya qüvvələri Sərkisyanın devrilməsini dəstəklədi. Müttəfiqinin sındırılmasından karıxan Rusiya isə susur. Ermənistan Rusiyanın müttəfiqi statusundan uzaqlaşacaq. Məsələ, sadəcə, ondadır ki, bu, nə dərəcədə sürətli və radikal şəkildə olacaq".

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**Serj Sərksiyanın istefasından sonra Ermənistanda hakimiyyət dəyişikliyi əsasən reallaşmış sayılır. Lakin hazırda siyasi gərginlik tam olaraq aradan qalxmayıb və Nikol Paşinyanın rəhbərlik etdiyi inqilabçı müxalifət yeni parlament seçkilərinə gedilməsi məsələsini qoyub. Bu isə o deməkdir ki, qarşıdakı dövrdə də işğalçı ölkədə siyasi hərarət yüksək olacaq.**



# Müxalifətdən “indi müharibəyə başlamaq olmaz” çağırışı

## Ermənistanda hərbi xuntanın devrilməsi bizi arxayın etməlidirmi? Siyasilər zamanın yetişmədiyini deyirlər

Bir çox siyasi ekspertlər, ictimai xadimlər 1993-cü ildə Azərbaycanın daxilində hökm sürən siyasi çaxnaşmalardan Ermənistanın fürsət olaraq istifadə etməsi və torpaqlarımızı işğal etməsini xatırladaraq indi də Azərbaycanın fürsətdən yararlanıb hərbi əməliyyatlara başlamasını və torpaqlarımızı azad etməsini təklif eləyirlər. Bir sıra siyasi təhlilçilər isə hesab edir ki, indiki həssas dövrdə hərbi əməliyyatlara əl atmağımız beynəlxalq sferada zərərimizə işləyə bilər. Odur ki, Azərbaycan hakimiyyəti Ermənistanda hərbi xuntanın iş başından getməsindən sonrakı dövrdə yeni qurulacaq erməni iqtidarı ilə danışıqlar aparmalı, ona Qarabağ məsələsinin həllində ermənilərin konstruktiv mövqeyə gəlməsinin Ermənistanın özü üçün də zəruri olduğunu izah etməlidir.

Azərbaycanın müxalifət düşərgəsinin yeni yaranmış vəziyyətdə necə davranılmasının tərəfdarı olduğuna gəlincə, **Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, Ermənistanda hakimiyyət dəyişikliyinin və normal bir hakimiyyətin iş başına gəlməsinin Qarabağ məsələsinə təsiri baxımından iki tərəfi var: “Bir tərəfdən hərbi xuntanın iqtidardan getməsi Qarabağ məsələsində radikal mövqenin iş başından getməsi baş verirsə, ikinci tərəfdən Ermənistana beynəlxalq aləmdə demokratiya yolunda irəliləməsi üstünlüyünü yaradacaq. Əgər Ermənistanda proseslər bundan sonra dinc demokratik məcrada davam etsə, bu, Ermənistanın siyasi baxımdan əlini gücləndirəcək. Rusiya onsuz da Ermənistanın müttəfiqidir. Digər tərəfdən, Qərb dünyasının Gürcüstan kimi tam dəstəyini qazana bilər. Ona görə də Azərbaycan bu məsələləri ciddi şəkildə göz önünə gətirməlidir. Azərbaycan Avropa Birliyi ilə, NATO ilə mümkün qədər sürətli şəkildə sıx münasibətlər qurmalıdır. Biz bunu neçə vaxtdır deyirik. İndiki vəziyyətdə isə Azərbaycanın fürsətdən istifadə edib hücuma keçməsi Rusiya və Qərb tərəfindən sərt qarşılana bilər.

Mən bu qənaətə gəlmişəm ki, Ermənistandakı son hadisələrdə Rusiya və ABŞ arasında müəyyən razılıq olub. Serj Sərkisyanın istefasından öncə ABŞ səfiri Ermənistan prezidenti ilə görüşmüşdü. O görüşdən sonra Serj Sərkisyanın istefası reallaşdı. Rusiya prezidentinin mətbuat katibi Peskovun da Sərkisyanı faktiki olaraq dəstəkləməyən bəyanatından az sonra istefa qərarı verildi. Bütün bunlar və digər nüanslar o deməkdir ki, proseslə bağlı Rusiya ilə ABŞ arasında bir anlaşma var. Ona görə də proseslərin bu cür gedişində Azərbaycan hərbi əməliyyatlara başlasa, Rusiya və ABŞ-ın reaksiyasını təxmin etmək elə də çətin deyil. Əgər Azərbaycan Rusiyanın razılığı olmadan hərəkətə keçərsə, o zaman qarşımıza Rusiya çıxacaq. Azərbaycanın indiki dövrdə ən vacib atmalı olduğu addım sürətlə demokratiyaya keçid olmalıdır. Azərbaycan hakimiyyəti ilk növbədə bunu etməlidir. Bizi irəliyə çıxara biləcək yeganə silah demokratiyaya keçid, Avropa Birliyinə ciddi inteqrasiyadır".

**VİP sədri Əli Əliyev** isə bildirdi ki, Qarabağ məsələsinin həllini Ermənistandakı vəziyyətə bağlamamalıyıq: “Təbii ki, yaxşı olardı orada idarəçilik şaquli dağılmış olaydı. Lakin bu, baş vermədi. Nədir, onda əl-qolumuzu sallayıb qarışıqlığı gözləməliyik? Belə olmaz. Ermənistanda baş vermiş məxməri inqilab dinc proses kimi baş tutdu. Hakimiyyətdə 20 ildən artıq müddətdə kök salmış Qarabağ klanı uzaqlaşdırıldı. Ancaq Qarabağ məsələsi yeni formalaşacaq hakimiyyət üçün də prioritet olacaq. Qarabağ torpaqları erməni ideyası üçün vazkeçilməz məsələdir. Ona görə də eyforiyaya qapılmaq olmaz. Əgər Ermənistan qarışsaydı, təbii ki, situasiya fərqli olardı. Lakin dinc yolla hakimiyyət dəyişikliyi bizim üçün əlverişli gedişat deyil. Bu yolla baş vermiş məxməri dəyişiklik erməni cəmiyyətinin dünyada nüfuzunu artıra bilər. Yəqin ki, ermənilər yeni parlament dəyişikliyinə gedəcəklər. Yeni parlament yeni hökuməti formalaşdıracaq. Yeni hökumət də yeni beynəlxalq prioritetlər müəyyənləşdirəcək. Fikrimcə, Rusiyayönlü siyasət balanslı siyasətlə əvəz ediləcək. Qərb Rusiya ilə qarşıdurma şəraitində Ermənistanın bu siyasətini alqışlayacaq. Ermənistan üçün isə birinci məsələ Qarabağ məsələsidir. Demokratik Ermənistanın beynəlxalq imicinin yaranması bizim zərərimizə ola bilər.

Qarabağ məsələsi beynəlmiləlləşib. Onun həlli zamanı reputasiyamız son dərəcə önəmlidir. Əgər dünyadan Qarabağı geri tələb edəcəyiksə, dəstək umacayıqsa, o zaman müraciət etdiklərimizin dəyərlərinə də hörmət nümayiş etdirməliyik. Bu dəyərlər isə ilk növbədə ölkə daxilində demokratiya, seçki, insan haqları, söz və düşüncə azadlıqları kimi məsələlərdir".

**AMİP katibi Əli Orucov** isə hesab edir ki, Ermənistanda baş verən indiki hadisələri Qarabağ probleminin Azərbaycanın xeyrinə həll edilməsi üçün fürsət saymaq üçün tezdir: “Əvvəla, ona görə ki, Dağlıq Qarabağla bağlı Levon-Ter Petrosyandan üzü bəri prezidentlər dəyişsə də, siyasət və yanaşma dəyişməyib. Sabah hakimiyyətə gələcək şəxs və siyasi qüvvələr də Qarabağ məsələsində xoşluqla geriyə addım atası deyillər. Digər tərəfdən, Moskvanın proseslərə rəsmi mövqeyi hələ konkret və aydın deyil. Əgər Azərbaycan tərəfi yaranmış vəziyyəti fürsət hesab edərək cəbhə xəttində atəşkəsi pozarsa, bu, ermənilərin əlinə Azərbaycana qarşı istifadə etmək üçün bəhanə verə bilər. Azərbaycanın torpaqlarını işğaldan azad etməyin yolu daxili birliyimizdən, həmrəyliyimizdən, demokratiyadan və inkişafdan keçir. Ermənistandakı böhran nə qədər dərinləşsə də, Dağlıq Qarabaş, işğalçılıq və "Böyük Ermənistan", eləcə də “soyqırımı” məsələsi onların ümumi və birləşdirici, formalaşdırılmış ideologiyalarıdır. Bu məsələlərdə bir-birilərinə qarşı ən qatı düşmən olan və mövqedə olan ermənilər ümumi dil taparaq anlaşa bilirlər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Rəsmi Bakı Xocalı canisi üçün hərəkətə keçə bilər

## Ekspert: “Sərkisyanın hər hansı bir ölkədən Azərbaycana gətirilməsi mümkündür”

**Ermənistanda prezidentlikdən getdikdən sonra baş nazir postunda cəmi iki həftə əyləşən Serj Sərkisyanın xalqın tələbi ilə istefa verməsi onun cəzalandırılması məsələsində Azərbaycan üçün perspektivlər açıb. Xocalıda və digər işğal edilmiş ərazilərimizdə əli azərbaycanlıların qanına batan cinayətkar Sərkisyanın törətdiyi əməllərə görə cəzalandırılması şansları artıb.**

Əgər indiyə qədər prezident olduğu üçün ölkəmizin Sərkisyanı cəzalandırmaq imkanları zəif idisə, indi belə deyil. Çünki qaniçən cəllad nə prezident, nə də baş nazir deyil. Bu baxımdan Azərbaycan onu etdiyi və sübuta yetirilmiş cinayətlərinə görə beynəlxalq tribunallara verə, barəsində beynəlxalq axtarış qərarı çıxartdıra bilər. Artıq Sərkisyan və digər erməni canilərinin cəzalandırılması üçün təkliflər, tələblər səslənməkdədir. Beynəlxalq qanunlarla Azərbaycanın bunu etmək imkanlarının kifayət qədər yüksək olduğu qeyd edilir.

**Hüquqşünas Əliməmməd Nuriyev "Yeni Müsavat"**a açıqlamasında Sərkisyanı cəzalandırmaq üçün çətin prosedurların olduğunu söylədi: “Biz hər zaman demişik və yenə də deyirik ki, Sərkisyan Xocalı soyqırımında, Azərbaycan ərazilərinin işğalında birbaşa iştirak etmiş şəxsdir, o, cinayətkardır. Bunu cənab prezident İlham Əliyev də hər zaman söyləyir. İndi vaxtda onun bütün immunitetləri aradan qalxıb, o əvvəl prezident, son olaraq da baş nazir idi. Amma onunla bağlı beynəlxalq prosedurları aparmağa dair bizim cəmiyyətdə yetərli bilgilər yoxdur. Fərdi qaydada müraciətlər ola bilər. Azərbaycan Xocalı soyqırımı məsələsini BMT qarşısında qaldıra, yeni xüsusi tribunalın müəyyən edilməsini tələb edə bilərdi. Bununla bağlı da beynəlxalq hüquqda müəyyən perspektivlər gözlənilir. Amma bu da çox çətin bir məsələdir. Çünki




burada Təhlükəsizlik Şurasının qərarı olmalıdır. Bizdə Xocalı soyqırımı ilə bağlı cinayət işi gedir. Bu baxımdan Azərbaycan Sərkisyanın beynəlxalq axtarışa verilməsi ilə bağlı məsələni qaldıra bilər. Amma onun saxlanılması, gətirilməsi müəyyən problemlər açar. Azərbaycanın hüquq-mühafizə orqanları bu şəxsi ölkəyə gətirmək üçün müəyyən əməliyyatlar keçirə bilər. İnterpol xətti ilə bəlkə də onun saxlanılması mümkün ola bilər. Lakin indiki vəziyyətdə bu, az ağlabatandır. Başqa üsullara da əl atmağımız gərəkir. Xocalı soyqırımında və digər işğal olunan ərazilərdə iştirakı, ayrı-ayrı şəxslərin qətllərində adının keçməsi və bu kimi məsələləri önə çəkmək olar. Sərkisyanın hazırda hüquqi müdafiəsi sürətlə zəifləməyə doğru gedir. Onu da güman edirəm ki, Sərkisyana qarşı öz ölkəsində yaxın zamanlarda cinayət işi qaldırılacaq. Korrupsiya və digər məsələlərlə bağlı ittiham oluna bilər. Azərbaycanda isə xeyli müddətdir onun haqda cinayət işi var və hesab edirəm ki, Serjlə bağlı müəyyən axtarış-əməliyyat tədbirlərinə hər an start verilə bilər”.

Hüquqşünas onu da qeyd etdi ki, Sərkisyanın hansısa bir beynəlxalq məhkəmə önünə çıxarılması hazırkı reallıqlarla mümkünsüz görünür: “Bunun üçün gərək bir tribunal yaradılsın. Buna da BMT tərəfindən razılıq verilməsi mümkün deyil. Lakin nəzəri baxımdan Sərkisyanın hər hansı bir ölkədən Azərbaycana gətirilməsi mümkündür. Ayrı-ayrı ölkələrin təcrübəsində qətliamlara, terrora yol vermiş şəxslər məsuliyyətə cəlb olunublar. İsrail praktikası burada çox önəmli nümunələrdən biridir. İsrail xalqına qarşı terror hərəkətlərinə yol vermiş şəxslər müxtəlif ölkələrdə həbs ediliblər, ya da müxtəlif yollarla məsuliyyətə cəlb olunublar. Gələcəkdə Azərbaycan da vətəndaşlarına qarşı qətliamlara, cinayət hərəkətlərinə yol vermiş şəxslər barəsində uyğun qaydada işlər görə bilər. Ermənistandan Sərkisyanın Azərbaycana təhvil verilməsi qeyri-mümkündür. Ölkəmizin praktikasında cinayətə yol vermiş şəxslərin tutulub Azərbaycana gətirilməsi halları var. Amma unutmaq olmaz ki, Sərkisyan beynəlxalq cinayətlərə yol verib. Bu baxımdan onun beynəlxalq axtarışa verilməsi yolu daha uyğundur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 89 (6978) 25 aprel 2018




# Söyüş oğruları

**Samir SARI**

Neçə gündür həyat çox maraqlıdır. Sensasion xəbərlər bir-birinin belindədir. Hətta artıq səhifədə itələşirlər, biri o birini, o biri də bu birini qatlayıb dizinin altına qoyur.

Əslində baş qaşımağa vaxtımız yoxdur, amma xoşdur. Təki süstlük olmasın, dinamiklik olsun, adamlar ciddi, maraqlı xəbərlər oxusunlar. Yoxsa oxumağa yaxşı xəbər olmayanda camaat gedib "Rəqsanə avtomobilinin yağını dəyişdi", "Damla özünə libas aldı", "Üzeyir Mehdizadə Türkiyədə coşqu ilə qarşılandı" kimi xəbərlər oxuyurlar.

Bir də var, camaat "Artur Rəsi-zadənin baş nazirlik dönəmi bitdi", "Etirazçılar Serj Sərkisyanı istefaya məcbur etdilər", "Nazirlər Kabinetində 10-a yaxın gənc nazir", "Hüseyn Abdullayev Türkiyədə tutulub gətirildi", "Torontoda terrot törədən şəxs erməni çıxdı" kimi xəbərlər oxusun.

Bu xəbərlərlə müqayisədə hansısa müğənninin avtomobilinin buferinin cızılması, əlbəttə ki, ciddi xəbər deyil.

Heç kəs gözləmirdi ki, aprelin 3-cü ongünlüyündə həyat qəfildən belə maraqlı olacaq. Heç politoloqlar da gözləmirdi. Düzdür, elə politoloq vardı, deyirdi, Sərkisyan gedicidir, duruş gətirə bilməyəcək, amma elə təcrübəli politoloq (məsələn, Zərdüşt Əlizadə) da vardı, deyirdi, Sərkisyana heç zad olmayacaq, qalıb işləyəcək, etiraz edənləri də zərərsizləşdirəcək.

Elə olmadı, Paşinyanı tutdular-buraxdılar, tərəfdarlarını döydülər, söydülər, xeyri olmadı, adamı devirdilər, getdi.

İndi daha əkə-bükə politoloqların işidir ki, bu hadisədə Qərbin, ABŞ-ın barmağının izini tapsınlar. 100 faiz tapacaqlar. Bir dəstə politoloq da iddia edəcək ki, Kremlin "dobro"su olmasaydı, Sərkisyan devrilməzdi, onun qələmini Moskvada qırıblar.

Yox, əgər Sərkisyan hakimiyyətdə qalsaydı, həmin ekspertlər bu dəfə deyəcəkdilər ki, Kreml Sərkisyanı dəstəklədikcə, ona batmaq mümkün deyil, Qərb Rusiyanın bostanına girə bilməz və sair və ilaxır.

Yəni yaranmış bütün situasiyaları öz "müdrik şərhləri" ilə dəyərləndirənlər var. Onlar dərindir, ağıllıdır, hər şeyi bilirlər və hər şəraitə uyğun izahatları var, üstlərində gəzdirirlər.

Hər şey aydındır da, bircə bu mitinq edən ermənilərin - arvadlı-kişili, gəncli-qocalı, uşaqlı-böyüklü Rusiya səfirliyinin qabağına yığışıb qardaş ölkənin prezidenti Putinin ünvanına o cür söyüş söymələrinin mənası nəydi?

Heç olmasa öz dillərində və ya rus dilində söyəydilər, biz də insidentin videosunu saytlarımıza qoyaydıq. Ancaq yaramazlar o boyda prezidentə bizim dildə söyürdülər, həm də elə söz işlədirdilər ki, iqtibas da etmək olmur.

Bu, nədir? Mahnılarımızı, lavaşımızı, tarımızı, sacımızı, dolmamızı oğurladılar, yetmədi, indi də milli söyüşlərimizi mənimsəyirlər? Söyüş oğruları.... Bu məsələnin bir tərəfi.

İkincisinə qalanda, görün, o mitinqə çıxıb Putinə söyənlər nə qədər nankor adamlardırsa, onları saxlayanın, qoruyanın üzünə ağ olurlar. İki il əvvəlin apreli yadlarından çıxıb, ellikcə Putinə "pomoqi" deyə yalvarırdılar ki, Azərbaycan əsgəri gəlir, Artsax əldən gedəcək.

İndi şələləri bellərinə düz gəlib, deməli, artıq Putinə söymək olar. Birdən o da söyüşdən pozuldu, onda necə olacaq?

Əlbəttə, bu, rusların və ermənilərin problemidir, özləri bilərlər, necə qardaş olurlar, ya olmurlar.

Dərd bizimkidir ki, Ermənistanda gedən qovğa-mərəkədə tərəf tuta bilmirik. Dünyanın hər tərəfindəki diktatorları müdafiə edənlər Sərkisyana eyni cür yanaşa bilmirlər, ona görə ki, adam hərbi canidir. Elə dünyanın hər tərəfindəki demokratik hərəkatları dəstəkləyənlər də Paşinyana rəğbət izhar edə bilmirlər - çünki adam ermənidir və Qarabağ məsələsinə münasibətdə Sərkisyanla eyni mövqedədir, hələ arada deyirmiş, Azərbaycana daha güclü zərbə vurulmalıdır. Ay, sən ölməsən!

İlk dəfədir ki, yaxın ölkələrdən birində "məxməri inqilab" olur və biz cinahlara bölünüb bir-birimizlə mübahisə etmirik.

Azarkeşlik etmək baxımından İrəvandakı hadisələr ləzzətli olmadı. Amma həyat davam edir. Bir azdan yeni nazirlərimizin haralılıqlarını, kimlərlə bacanaq, yeznə-qayın, kürəkən-qayınata olduqlarını araşdıracağıq, həyat çox maraqlı olacaq.

# 6 seçki dairəsi deputatsızdır

## MSK üzvü: "Deputatsız dairələrdə yeni seçkinin nə zaman olacağı prezident sərəncamı verildikdən sonra bəlli olur"

**Nazirlər Kabinetinin yeni tərkibinin formalaşdırılmasında Milli Məclis sanki kadr bankı funksiyasını daşımış oldu. Belə ki, ölkə prezidentinin sərəncamına əsasən, 4 deputat Nazirlər Kabinetinin strukturuna daxil olan mərkəzi icra hakimiyyəti orqanına rəhbər təyin olunub.**

Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədr müavini Rövşən Rzayev Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Milli Məclisin Gənclər və İdman Komitəsinin sədri Fuad Muradov Diasporla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin sədr müavini Vüsal Hüseynov Dövlət Miqrasiya Xidmətinin rəisi vəzifəsinə, deputat Muxtar Babayev ekologiya və təbii sərvətlər naziri vəzifəsinə təyinat alıblar.


Mikayil Rəhimov

Xatırladaq ki, Azərbaycan Konstitusiyasının 89-cu maddəsinin 4-cü hissəsinə əsasən, Milli Məclisin üzvü icra hakimiyyəti orqanlarında vəzifə tutduqda parlament üzvlüyündən istefa verməlidir. Həmin şəxs bunun üçün MSK-ya müraciət etməli, MSK isə bu müraciətə maksimum 2 ay müddətində baxıb deputatın mandatına xitam verilməsi ilə bağlı qərar verməlidir.

Artıq Rövşən Rzayev barədə belə bir qərar verilib. Bu günlərdə digər üç nəfər barəsində də eyni qərar veriləcək. 4 deputatın mandatının ləğvi o deməkdir ki, Milli Məclis üzvlərinin sayı daha dörd nəfər azalıb, 125-dən 119-a düşüb. Belə ki, ölkənin birinci xanımı Mehriban Əliyeva birinci vitse-prezident təyin edildiyi üçün 2017-ci ilin martında onun deputatlıq səlahiyyətlərinə xitam verilib. Bundan əlavə, iki həftə öncə deputat Astan Şahverdiyev qəfil ürəktutmasından dünyasını dəyişib.

Hazırda Milli Məclisdə 6 deputat yerini boş saymaq olar.

Siyasi dəhlizlərdə gəzən söhbətlərə görə, bu ilin payızında Milli Məclisin buraxılması və yeni parlament seçkilərinin keçirilməsi ehtimalı var. Lakin bu, baş verməsə belə, boş qalan 6 deputat yerinə seçkilər keçiriləcək.

Yuxarıda qeyd edilən hadisələrə görə deputatsız qalan dairələr bunlardır: 14 saylı Xəzər, 120 saylı Cəbrayıl-Qubadlı, 101 saylı Göygöl-Daşkəsən, 43 saylı Sumqayıt üçüncü, 34 saylı Xətai ikinci, 91 saylı Ucar Seçki Dairəsi.

**Milli Məclisin deputatı Zahid Oruc** bildirib ki, növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruri deyil, lakin boş qalan dairələrə seçkilər keçirilə bilər: "Parlament nəyə görə növbədənkənar seçkilərə getməlidir ki?! Hətta parlamentin yarı heyəti getsə belə, növbədənkənar seçkilərə getməyə ehtiyac olmaz. Sadəcə olaraq, boş qalan yerlərə seçkilər keçirilməlidir. Prosedur tam olaraq belədir. Öncə həmin 4 deputatın mandatı alınmalı, sonra onların dairəsində təkrar seçkilər keçirilməlidir".

Deputatsız qalan dairələrdə yeni seçkinin keçirilib-keçirilməyəcəyinə gəlincə, MSK katibi **Mikayıl Rəhimov** bildirdi ki, deputat mandatına xitam verildikdən sonra boş qalan dairədə yeni seçkinin təyin olunması Seçki Məcəlləsinin tələbi ilə tənzimlənir. Seçki ölkə prezidentinin sərəncamı ilə təyin edilir və bundan sonra həmin dairədə seçkilər keçirilir: "Odur ki, deputatsız dairələrdə yeni seçkinin nə zaman olacağı prezident sərəncamı verildikdən sonra bəlli olur".

Qeyd edək ki, Seçki Məcəlləsinin 176-cı maddəsinə görə, deputat mandatının boş qalmasından sonra bir ay müddətində müvafiq birmandatlı seçki dairəsi üzrə əlavə seçkilər təyin edilməlidir. Konstitusiyanın 87-ci maddəsində isə qeyd olunur ki, parlamentin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, hər hansı səbəbdən deputatsız qalan dairələrdə seçkilər keçirilmir. Hazırkı Milli Məclis isə 2015-ci ilin noyabrında seçilib. Bu isə o deməkdir ki, növbəti parlament seçkilərinə iki ildən artıq müddət qalıb. Deməli, qanunvericilik boş qalan dairələrdə yeni seçkilərin keçirilməsi zərurəti yaradır.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Sabiq nazir yeni nazirin təqdimatına gəldi

## Hüseyn Bağırov Muxtar Babayevə gələcək fəaliyyətində uğurlar arzulayıb



**Yeni ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev nazirliyin kollektivinə təqdim edilib. Bu barədə "Report"a nazirliyin mətbuat xidmətindən məlumat verilib.**

Yeni naziri kollektivə prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədov təqdim edib.

Prezidentin 23 aprel 2018-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev nazirliyin kollektivinə təqdim olunub.

Əli Əsədov Muxtar Babayevin keçdiyi həyat yolu və iş təcrübəsi barədə məlumat verib.

Ə.Əsədov qeyd edib ki, ekologiya və ətraf mühitin sağlamlaşdırılması, təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə olunması Azərbaycan prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Ölkəmizdə reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri ətraf mühitin mühafizəsini, insanların sağlam təbii mühitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Buna uyğun olaraq Azərbaycan Respublikasının prezidentinin imzaladığı fərmanlarda, təsdiq etdiyi Milli və Dövlət proqramlarında ekoloji mühitin sağlamlaşdırılması məqsədilə nəzərdə tutulan hədəflərin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilib, müvafiq surətdə ətraf mühitin bütün sahələrində, o cümlədən aqromeşələrin salınmasında, yaşıllıqların artırılmasında, meşələrin inkişafında, biomüxtəlifliyin mühafizəsində, su ehtiyatlarının davamlı idarə olunmasında və digər sahələrdə nəzərəçarpacaq nailiyyətlər əldə edilib.

Ə.Əsədov dövlət başçısı tərəfindən ekologiya və ətraf mühit sahəsində qarşıya qoyulan vəzifələrin, verilən tapşırıqların icrası ilə bağlı nazirliyin kollektivinə müvafiq məsləhət və tövsiyələr verib.

Yeni ekologiya və təbii sərvətlər nazirinin təqdim edilməsində iştirak edən Hüseyn Bağırov nazir M.Babayevə gələcək fəaliyyətində uğurlar arzulayıb.

M.Babayev İlham Əliyev tərəfindən ona göstərilən yüksək etimada görə minnətdarlığını bildirib. O, dövlət başçısının ekologiya və ətraf mühit sahəsi ilə bağlı müəyyən etdiyi vəzifələrin icrasının layiqincə təmin ediləcəyini vurğulayıb. M.Babayev bundan sonra da nazirliyin fəaliyyətinin bütün istiqamətlərində şəffaflığın tam təmin ediləcəyini, sistemli yanaşma və sosial ədalət prinsiplərinin rəhbər tutulacağını qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 89 (6978) 25 aprel 2018



# Qarabağ üçün yeni kritik dönəm - Moskva və İrəvan ənənəvi kursu dəyişəcəkmi?

## Ermənistandakı siyasi böhran işğalçı ölkənin Azərbaycanla münasibətlərində və konfliktin taleyində mühüm iz qoya bilər, əgər...; politoloqlardan ehtiyatlı nikbinliklə yoğrulmuş şərh və təxminlər...

**Ermənistanda bir nəfərin hakimiyyət erası, daha dəqiqi, "Qarabağ klanı"nın 20 illik kriminal iqtidarı sona çatdı. Köçəryan-Sərkisyan tandemi 1998-ci ildə hansı yolla hakimiyyəti ələ keçirmişdisə, eyni üsulla da yola salındı. Bu klanın sonuncu odioz başçısı, Xocalı hərbi canisi, hakimiyyətinin ömrünü daha 5 il uzatmaq üçün hətta konstitusiyanı dəyişən Serj Sərkisyan erməni xalqının tələbi ilə iqtidardan getdi, yeni postda - baş nazirlikdə cəmi bir neçə gün duruş gətirə bildi.**




Bundan sonra Ermənistanda, Qarabağ məsələsi ətrafında proseslər necə, hansı istiqamətdə gedəcək? İndi əsas suallardan biri budur. Hələlik birmənalı cavab söyləmək çətindir. Çünki işğalçı ölkədəki inqilabi hərəkat hələ yekunlaşmayıb, məntiqi sonluğa çatmayıb, hakimiyyətin bir çox mühüm postları Sərkisyanın adamlarının əlindədir. Hətta yeni prezident Aram Sərkisyanın da onun adamı olduğu deyilir.

*****

Bir şeyi artıq əminliklə söyləmək olar ki, Dağlıq Qarabağ məsələsi üçün keyfiyyətcə yeni bir dönəm başlayır. Bəs bu dönəmdə konfliktin əsas memarı olan Rusiya öz ənənəvi taktikasını dəyişəcəkmi, dəyişəcəksə hansı səmtə dəyişəcək və bunun Qarabağ probleminin həllinə pozitiv təsirləri mümkündürmü?

Siyasi analitiklərin bu yöndə şərh və proqnozları daha çox ehtiyatlı nikbinlikdən ibarətdir. Məsələn, **politoloq Elxan Şahinoğlu** hesab edir ki, Serj Sərkisyanın istefası hələ işin yarısıdır: "Nikol Paşinyanın Serj Sərkisyan üzərində qələbəsindən sonra onun iki yolu var idi. Birinci yol Sərkisyanın istefasıyla kifayətlənib Karen Karapetyanın baş nazir seçilməsinə yaşıl işıq yandırmaq, ikinci yol isə indiki hökumətin müvəqqəti xarakter daşıdığını bildirərək növbədənkənar parlament seçkisi tələb etməkdir. Paşinyan doğru qərar verdi və ikinci yolu seçdi. Çünki Sərkisyanın istefası işin yarısıdır, parlamentdə Respublika Partiyasının çoxluğuna son qoymaq lazımdır. Paşinyan artan reytinqindən istifadə edərək yeni seçkiyə gedib parlament çoxluğunu müxalifətin xeyrinə dəyişmək istəyir. Cin şüşədən çıxıb, Paşinyan və onun tərəfdarları Ermənistanda yaxın illərdə həlledici fiqurlara çevriləcək. Ermənistanda bu dəyişikliklərin Dağlıq Qarabağ münaqişəsinin həllinə nə dərəcədə xeyri olub-olmayacağı üzərində müxtəlif variantlar hazırlamalıyıq".

"Bu istefanın Qarabağ münaqişəsinin həlli istiqamətində hər hansı ciddi irəliləyişə və böyük bir nailiyyətə gətirib çıxaracağını düşünmürəm". Bu sözləri isə **ABŞ-dakı "Karnegi Avropa" fondunun böyük elmi işçisi, Qarabağ konfliktinin araşdırmaçısı, "Qara Bağ" kitabının müəllifi Tomas de Vaal** Axar.az-a deyib. Onun sözlərinə görə, erməni siyasi elitasında dəyişdirilə bilməyən, Azərbaycanla heç bir kompromisə izn verməyən, atəşkəsin gücləndirilməsi üçün təhlükəsizlik tədbirlərinə xüsusi diqqət yetirən bir razılıq mövcuddur. "Zənnimcə, bundan sonra əsas vasitəçinin kim olduğu barədə bəzi qarışıqlıqlar olacaq, çünki, əlbəttə, Serj Sərkisyan bu münaqişə və danışıqların bütün detallarını yaxşı bilirdi", - de Vaal bildirib.

Ekspertin fikrincə, münaqişənin müzakirəsi artıq öz formatını dəyişəcək. "Qarabağ konflikti danışıqlarında Azərbaycan və Ermənistanın müzakirəsi üçün xüsusi bir qrupun yaradılması lazım olacaq. Artıq bu məsələ XİN rəhbərləri və prezidentlərin görüşü ilə çərçivələnməməlidir", - deyə o əlavə edib.

*****

Öz növbəsində **Azərbaycanın sabiq xarici işlər naziri, vaxtilə Qarabağ danışıqlarının içində olmuş Tofiq Zülfüqarov** düşünür ki, Rusiya Ermənistandan çıxmaq istəyir: "Uzun müddətdir ki, Rusiyada Ermənistanı qulpu olmayan bir çamadan adlandırırlar. Bu, onu göstərir ki, Ermənistan Rusiya üçün mənasız bir yükdür. Burada mənasız dedikdə, təbii ki, iqtisadiyyatdan söhbət gedir. Əslində Ermənistanı maliyyələşdirmək, bir dövlət kimi saxlamaq və müdafiə etmək üçün Rusiya tam şəkildə bütün xərcləri ödəyirdi. Ancaq Moskva artıq maliyyə baxımından Ermənistanı lüzumsuz bir yer hesab edir və Ermənistandan çıxmaq istəyir. Belə olan halda Ermənistan təbii olaraq hansısa ayrı bir güc mərkəzinə yaxınlaşmağa çalışacaq".

Politoloqa görə, artıq o da bəllidir ki, Avropa İttifaqı ən azından Ermənistanın iqtisadi tələbatlarını ödəyəcək. "Rusiyanın bu halda Qərblə bərabər Ermənistanın təhlükəsizliyini təmin edib-etməyəcəyini isə yaxın gələcək göstərəcək. Hesab edirəm ki, Rusiya öz mövqelərini saxlamaq üçün bir müddət Ermənistanın təhlükəsizlik tələbatlarını ödəyəcək. Baxaq görək, bu müddət nə qədər çəkəcək" - eks-nazir əlavə edib.

Ümumiyyətlə, onun qənaətincə, Ermənistanı istər Qarabağ klanı idarə eləsin, istərsə də ermənilər özləri, bu ölkənin strategiyası kökündən səhvdir: "Regionda kiçik Ermənistan güclü ölkələrin qarşısına çıxa bilməz. Yəni reallıqda onlara imkan versələr, təbii ki, Azərbaycanla sülhə razı olarlar. Çünki onlar ciddi başa düşürlər ki, Azərbaycan torpaq məsələsində güzəştə getməyəcək. İkincisi isə, Azərbaycan siyasətinin əsas istiqaməti işğal olunmuş torpaqlarını azad etməkdir. Reallıq belədir və bunu başa düşməlidirlər. Üçüncü bir amil isə odur ki, Türkiyə bu məsələdə Azərbaycanın yanındadır. Nəhayət, ən əsası Ermənistan Rusiyaya bir müttəfiq kimi lazım deyil".

*****

"Ermənistanın ABŞ-ın təsiri altına düşməsi və etibarsız müttəfiqə çevrilməsi ehtimalı şəraitində Rusiya, Dağlıq Qarabağ münaqişəsi məsələsi də daxil olmaqla, Cənubi Qafqazda üstünlüyü məhz Azərbaycana verməlidir". Bunu da **Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, Moskvadakı Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov** Serj Sərkisyanın istefasını şərh edərkən deyib (Trend).

S.Markovun sözlərinə görə, Serj Sərkisyanın və "Qarabağ klanı"nın gedişi Dağlıq Qarabağ münaqişəsinin həllinə ciddi təsir göstərəcək, amma nə cür təsir göstərəcəyi məlum deyil: "Məsələ ondadır ki, bu, təkcə Sərkisyanın uzaqlaşdırılması deyil: bu, amerikayönümlü, erməni "maydan"ının qələbəsidir. Paşinyan dəfələrlə deyib ki, Ermənistan Avrasiya İqtisadi İttifaqından çıxmalıdır. Onlar kifayət qədər amerikayönümlüdür və onların əsas vəzifələri Ermənistanı Rusiyadan qoparmaqdır. Ancaq heç də bütün ermənilər Dağlıq Qarabağ ətrafındakı rayonların saxlanması və Azərbaycana qaytarılmamasına görə blokadada əziyyət çəkmək istəmir. Ona görə də "Kazan formulu" əsasında dinc yolla nizamlanma imkanı artır".

*****

*Bu, analitiklərin təxminləridir. Onlara dəqiq qiyməti isə, əlbəttə ki, əlahəzrət zaman verəcək. Həmin qiymət də əsas suala aydınlıq gətirəcək: Moskva və İrəvan Qarabağla bağlı ənənəvi destruktiv kursu konstruktiv kursa dəyişəcəkmi?..*




## Azərbaycan XİN: "Danışıqları davam etdirməyə hazırıq"

**"Serj Sərkisyanın rəhbərlik etdiyi hərbi diktatura rejiminin hakimiyyətdən getməsindən sonra Ermənistanda hakimiyyətə sağlam siyasi qüvvələrin gələcəyinə ümidvarıq". Bunu Ermənistanda baş vermiş hakimiyyət dəyişikliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə necə təsir edə biləcəyini şərh edən XİN-nin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.**

O bildirib ki, Ermənistan xalqını əsarətdə və müharibə xofu altında saxlayan Sərkisyan rejiminin yürütdüyü siyasət nəticəsində Qarabağ münaqişəsinin həllində indiyə qədər irəliləyiş əldə etmək mümkün olmayıb: "Qoşunların təmas xəttində Azərbaycan tərəfindən guya hərbi texnika və canlı qüvvənin cəmləşdirilməsi barədə keçmiş Sərkisyan rejiminin ünsürlərinin isterik açıqlamaları həqiqəti əks etdirmir və keçən ilə aid məlumatlara əsaslanır. Burada məqsəd yalnız ictimai fikri çaşdırmaq idi. Amma fakt ondan ibarətdir ki, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olmaqda davam edir. Gərginlik riskini aradan qaldırmaq üçün Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılımalıdır. Münaqişənin beynəlxalq hüququn norma və prinsipləri və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələbləri əsasında sülh yolu ilə tezliklə həlli üçün Ermənistandakı sağlam siyasi qüvvələrlə danışıqları davam etdirməyə hazırıq. Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini təmin edəcək".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 89 (6978) 25 aprel 2018

# Yeni nazir "kəndlinin yanında olacam" dedisə...

## İnam Kərimovun 3-lü düsturu aqrar sektoru ayağa qaldıra biləcəkmi...



**Hökumətin tərkibindəki yeniliklər cəmiyyətdə böyük rezonansa səbəb olub. İlk dəfədir ki, seçkilərdən sonra hökumət sıralarında bu qədər çoxsaylı dəyişikliklər baş verir.**

Qeyd edək ki, rəhbər dəyişikliyi qeydə alınan bir sıra sahələrdə yeniliklərin olması günün zərurətinə çevrilmişdi. Buraya ilk növbədə kənd təsərrüfatı sahəsini aid etmək olar. Sürətlə postneft dövrünə gedən Azərbaycanda neftdənkənar sahələrin inkişaf etdirilməsi, faktiki olaraq, ölkənin taleyi baxımından həyati əhəmiyyət kəsb edir. Qeyri-neft sahəsinin inkişafını isə aqrar sektorsuz təsəvvür etmək mümkün deyil. Buna görə də son illərdə bu sahəyə birbaşa dövlət rəhbərliyi səviyyəsində diqqət qat-qat artırılıb.

Bu gün dövlət kənd təsərrüfatı istehsalını artırmaq üçün istehsalçılara çoxşaxəli dəstək verir: həm toxum, həm gübrə, həm texnika, həm də motor yağları güzəştli satılır, əkilən sahələrə, götürülən məhsula görə subsidiyalar verilir. Dövlətin dəstəyi bununla da bitmir, hazır məhsulun ixracı üçün ixrac təşviqi də ödənilir. Bundan əlavə, ixrac bazarlarının tapılması, istehsal və ixracda yeni innovativ metodların öyrənilməsi sahəsində fermerlərə pulsuz məsləhət xidməti göstərilir. Aqrar sektorda inkişafa aparacaq hər təşəbbüs ölkə rəhbərliyi tərəfindən dəstəklənir. Yeni kənd təsərrüfatını irəli aparmaq üçün kompleks mexanizmlər tətbiq olunur. Bütün bu dəstək tədbirlərinin təyinat ünvanına - istehsalçı-fermerlərə çatdırılması bu mexanizmin ən zəif həlqəsidir desək, yanılmarıq. Heydər Əsədov nazir təyin olunarkən ondan ən böyük gözlənti məhz bu həlqənin düzgün işləməsinin təmin olunması idi. Daha bir gözlənti kənd təsərrüfatı istehsalında innovativ texnologiyaların tətbiqi, bu sahədə daha müasir metodlara keçidlə bağlı idi. Lakin bu gözləntilərin heç biri doğrulmadı: köhnə fəaliyyətlərin yeni komanda tərəfindən icrası baş verdi. Üstəlik, H.Əsədovun komandası ölkədə heyvandarlığa böyük zərbə vurdu.



Bütün bunlar ölkə rəhbərliyinin etimadının çox yüksək olduğu İnam Kərimovu aqrar sektorun başına gətirməsinə səbəb oldu. Aqrar sektorda mövcud vəziyyət İ.Kərimovun üzərinə çox böyük bir məsuliyyətin qoyulması deməkdir: nazirlik strukturlarını başdan-ayağa sarmış neqativliklərin qarşısını almaq, fəaliyyətdə şəffaflığı təmin etmək, eyni zamanda ölkənin torpaq və su ehtiyatları üzrə potensialından səmərəli istifadəni təmin edəcək innovativ texnologiya və metodların tətbiqinə nail olmaq kifayət qədər gərgin iş, böyük zəhmət tələb edir. Hesab etmək olar ki, İ.Kərimov bu yükün məsuliyyətini indidən görür. Belə ki, o, kollektivə təqdim olunma mərasimində nazir kimi fəaliyyət istiqamətlərini necə gördüyünü açıqlayıb: "Əsas işimiz, əsas fəaliyyət prinsipimiz 3 istiqamətdə olacaqdır. Bunlardan birincisi, kəndli və fermerlərlə daha yaxın olmaq, onların qayğısını daha yaxından hiss etmək, yanlarında daim olmaq. İkinci istiqamət, düzgün və səmərəli idarəçilik, şəffaflığın təmin edilməsi, hesabatlılıq, neqativ hallara qarşı mübarizə. Ən böyük fəaliyyət isə kənd təsərrüfatının inkişafında innovasiyaları tətbiq etmək və innovativ kənd təsərrüfatına nail olmaqdır".

Əgər yeni nazir bu qeyd etdiklərinə nail olacaqsa, bu, kənd təsərrüfatının timsalında Azərbaycanın qeyri-neft sektorunun inkişafında tamamilə yeni və mütərəqqi bir mərhələnin başlanması demək olacaq. Bu, eyni zamanda kənd təsərrüfatına dövlət dəstəyi sistemində uzun illərdən bəri kök salmış korrupsiya mexanizmlərinin aradan qaldırılmasına, yəni dövlətin xərclədiyi vəsaitlərin ünvanına çatmasının təmin olunmasına gətirib çıxaracaq.

Onu da qeyd edək ki, bu günlərdə dövlətin dəstək verdiyi kənd təsərrüfatı məhsullarının ixracı sahəsində müsbət dəyişikliklərə səbəb olacaq bir addım da diqqəti cəlb edir. Bunlardan birincisi, prezident tərəfindən aprelin 20-də imzalanan "Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamdır. Sərəncama əsasən, bir sıra idxal-ixrac əməliyyatları üzrə nəzarəti Dövlət Gömrük Komitəsi təkbaşına deyil, Vergilər Nazirliyi ilə birgə həyata keçirəcək. Bu əməliyyatların siyahısı və mexanizmi bir ay müddətində hazırlanacaq. Ehtimal olunur ki, siyahıda əsasən qeyri-neft məhsullarının idxal-ixracı prosedurları əksini tapacaq. Bu isə son zamanlar bu prosedurlarla bağlı sahibkarlar arasında yaranan narazılıqların ölkə rəhbərliyinin diqqətində olmasını göstərir.

Baş verənlər həm də onu deməyə əsas verir ki, ölkə rəhbərliyi aqrar sektorun inkişafı üçün zəruri olan bütün dəstəyi verməklə yanaşı, bu sahənin dirçəlməsinə yaradılan maneələri də aradan qaldırmaqda israrlıdır.

**❑ TURQUT,
"Yeni Müsavat"**

# Bayılda sürüşmə səngiyib, narazılıq isə artıb

## Sakinlərin elektrik xətləri kəsilib, əhali "imkan versinlər, evimizdə yaşayaq" deyir

**Bayıl yamacında sürüşmə zonasında yaşayan əhali növbəti dəfə etiraz aksiyası keçirməyə hazırlaşır. Bu barədə "Yeni Müsavat"a sakinlərin özləri məlumat veriblər. Onlar bildiriblər ki, öz evlərində rahat yaşaya bilmirlər. Müvafiq qurumların nümayəndələri sakinlərin kommunal xətlərini bərpa etmirlər ki, bu da onlarda narazılıq yaradıb. Sakinlərin sözlərinə görə, yanvar ayından qaz, su xətləri kəsilib. Ötən həftənin sonunda isə Mənzil İstismar İdarəsinin işçisi ilə "Azərişıq" ASC-nin nümayəndələri gəlib işıqlarını kəsiblər.**



Sakin İlham Nurullanın sözlərinə görə, əvvəlcə MİS nümayəndəsi gəlib sakinlərdən ərazini çıxmağı tələb edib: "Bizə dedilər ki, evinizdən çıxmalısınız. Burada yaşamağa icazə verilmir. Həmin zaman əhali ilə məmurlar arasında mübahisə düşdü. Hadisədən iki gün sonra gəlib elektrikin verilişini dayandırdılar. Yalnız aprelin 23-də axşam saat 23 radələrində elektrikin verilişi bərpa olunub. Bunun da hansı səbəbdən baş verdiyi məlum deyil. Sakinlərin istəyi odur ki, icazə versinlər evimizdə yaşayaq. İkincisi də bizi narahat edən məsələ kompensasiya məsələsidir. Sürüşmə zamanı uçan 6 evin sahibinə hər kvadrat üçün 700 manat ödədilər. Bizə isə bu məbləğ sərf etmir. Məsələ ilə bağlı məhəllədə ötən həftə aksiya keçirdik. Lakin bu aksiyamıza da reaksiya verən olmadı. Kimsə kompensasiya ilə əlaqədar bizə söz demədi".

Bayıl yamacında hazırda əhalinin bir qismi verilən kirayə pulu ilə razılaşıb evlərini tərk edib. Lakin ərazidə hər hansı bir qoruma olmadığı üçün onlar da mənzillərindən uzun müddət kənarda qala bilmirlər. Bu səbəbdən də, demək olar ki, hər gün gəlib evlərinə nəzarət edir, həyətlərində işləyirlər. Sakinlərlə söhbətimiz zamanı onlar söylədilər ki, evlərini birdəfəlik tərk etmək fikirləri yoxdur. Çünki kompensasiya barəsində konkret söz almayıblar. Kirayəyə çıxanların da bir qismi bundan imtina edib, evlərinə dönmək istəyir. Onlar bildirdilər ki, uşaqlarının məktəbi Bayıla yaxın ərazidədir. Dövlətin verdiyi kirayə pulu ilə həmin ərazidə mənzil tapa bilmədikləri üçün xeyli aralıda məskunlaşıblar. Hər gün uşaqlarını bu ərazidən məktəbə aparıb-gətirmək isə onlar üçün əsaslı problemə çevrilib. Buna görə də sakinlər kommunal xətlərinin bərpa olunmasını tələb edir, öz evlərinə qayıtmağı istəyirlər.

Onu da qeyd edək ki, bu ilin fevral ayında Bayıl sürüşmə zonasındakı vəziyyətlə bağlı Nazirlər Kabineti müvafiq sərəncam imzalayıb.

Həmin sərəncama əsasən, Bayıl yamacında sürüşmə təhlükəsi ilə bağlı ərazidən köçürülən 98 ailənin 11 ay ərzində müvəqqəti yerləşdiyi mənzillər üçün kirayə haqqının ödənilməsi məqsədilə 2018-ci il dövlət büdcəsinin Ehtiyat Fondundan Səbayel Rayon İcra Hakimiyyətinə müvafiq vəsait ayrılıb. Eyni zamanda bildirildi ki, 10 fevral 2018-ci il tarixində həmin ərazidə tam dağılmış, 90-cı illərdə tikilmiş 4 fərdi yaşayış evinin sahiblərinə kompensasiya ödənilməsi üçün tələb olunan vəsaitin məbləğinin 10 gün ərzində hesablanıb Nazirlər Kabinetinə təqdim olunması Fövqəladə Hallar Nazirliyi və Səbayel Rayon İcra Hakimiyyətinə tapşırılır.

Bu ayın əvvəlində məlum oldu ki, ümumi sahəsi 306 kvadratmetr olan 4 fərdi yaşayış evinin, həmçinin bir hissəsi dağılaraq yaşayış üçün yararsız vəziyyətə düşmüş ümumi sahəsi 182 kvadratmetr olan 2 fərdi yaşayış evinin sahiblərinə evin bir kvadratmetri üçün 700 manat və hər bir evdə yararsız vəziyyətə düşmüş ev əşyaları üçün 1500 manat olmaqla birdəfəlik maddi yardım ödənilməsi qərara alınıb. Rəsmi məlumatlara görə, artıq bu vəsait həmin şəxslərin hesabına köçürülüb.

**❑ Əli RAİS,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 89 (6978) 25 aprel 2018

**Mənim budəfəki qəhrəmanım 1959-cu ildə Bakıda doğulub. Neyrocərrah ata və bioloq ananın oğlu özü üçün də gözlənilmədən Bakıda Bülbül adına Musiqi Məktəbində 4 il oxuyub, sonra səhhəti üzündən oranı tərk edərək 160 saylı məktəbə yerini dəyişib və orada özündə şairlik kəşf edib.**



# “O vaxt ya özünü asmalı, ya da ölkədən qaçmalı idin” - İspaniyada tənhalığa sığınan soydaşımız...

## İspaniyada yaşayan musiqiçi, bəstəkar, həkim Azər Ağalarov: “Azərbaycanlılar musiqili xalqdır”

Azər Ağalarov rejissor olmaq, heç olmasa, Moskva Dövlət Universitetinin (“MQU”) jurnalistika fakültəsinə daxil olmaq, lap uzağı, dillər institutlarından birinə girmək istəyirdi. Atası Azərbaycanda neyrocərrahlıq xidmətinin banisi, Azərbaycan Dövlət Tibb İnstitutunun (hazırda universitet - red.) neyrocərrahiyyə kafedrasının müdir müavini Əliqulu Ağalarov isə övladının tibbi təhsil almasında təkid edirdi.

Yekunda 1976-cı ildə o, müalicə fakültəsinə daxil olur. Oranı bitirdikdən sonra Təcili Yardımda, operativ şöbədə Bakının o vaxt üçün ən narahat nöqtələrindən olan Bayılda baş həkim işləyib. 1992-ci ildə, Almaniyaya emiqrasiyadan öncə paytaxtdakı 5 nömrəli xəstəxana nəzdində Qastroentereloji Mərkəzdə də 4 il işləməyə müvəffəq olub.

Azər Ağalarov Almaniya və Çexiyada radio jurnalisti kimi çalışıb. Almaniyada tibbi təcrübə sahəsində 14 illik staja malikdir. İspaniyada laquna ilə dəniz arasındakı qumlu hissədə musiqili və təmiz ispan adı daşıyan yerdə - Le Manqa del Mar Menorda yaşayır.

Azər Ağalarovun 4 övladı var. Ən böyüyü - Nərgiz dillər institutunu bitirib. Oğlu Alik Avropa şou-biznesində kifayət qədər tanınan rəqqasdır, rəqslərə quruluş verməklə məşğuldur. Digər oğlu Mixael Münhen Universitetinin hüquq fakültəsini bitirməkdədir. İkinci qızı İzabel-Dəniz isə Lamborgini Avtokonserni nəzdində menecment məktəbində təhsil almağa başlayıb.

Biz həkim, yazıçı, jurnalist və musiqiçi Azər Ağalarovla şairlər, “Yaqub yolu” və Azərbaycandakı yaxşı şeylərdən danışdıq.



### “Azadlıq” radiosunda Mirzə Xəzər mənim qarşımda şərt qoydu

***- Belə təəssürat yaranır ki, siz günün birində qərara gəlmisiz ki, cənub səmtinə, ilim-ilim gedəsiz, ancaq birdən kontinental Avropa qurtarıb və belə bir füsunkar yerdə ilişib qalmışsınız. Mənim tanıdığım, vaxtilə aktiv, ünsiyyətcil olan bir insanın nədənsə şüurlu seçiminə oxşamır bu. 50-dən sonra həyatı nə dərəcədə darıxdırıcı təsəvvür edirdiniz?***

- İspaniyaya köçməklə bağlı heç bir planım olmayıb. Sadəcə, belə alındı. Ancaq seçim tamamilə şüurlu olub. Bundan əlavə, əgər sən daima yaradıcı prosesdəsənsə, o zaman sənin üçün darıxdırıcı ola bilməz. Mən tənhalığın ilk təcrübəsini yüksək qiymətləndirdim, mənə elə gəldi ki, sanki öz planetimi tapmışam. Özümə aparatura aldım, musiqi yazıram, heç kimə mane olmuram, coqqinqlə məşğul oluram. Darıxanda isə kafeyə, bara gedirəm - harda ki, hamı gülümsəyir, ingiliscə bilmirlər, ancaq dialoq istənilən halda alınır. Yerli adamların açıq qəlbliliyi - məndən ötrü daha bir kəşfdir.

Dünyanın hər yerindən dostlar bura tez-tez baş çəkirlər, əlavə olaraq sosial şəbəkələrdə yazışıram. Elə özüm də səbrli deyiləm, daim səyahət edirəm. La Manqda yalnız mövsüm zamanı hay-küylü olur: uzağı 3 ay. Yerdə qalan vaxtda burada kosmik sükut hökm sürür. Drayv istəyirsən? Buyur - Valensiya və Qranada buradan 300 km-lik məsafədədir.

***- Mən sizin yaradıcılığınızla tərcümən on il qabaq tanış olmuşam. “Siz Stefan Volf” təxəllüsü ilə yazırdınız. Və bu, povest idi. “Zamanın xaricində vitraj” adlanırdı. Orada maraqlı bir giriş var idi: “Bu, psixodelik povestdir və Maxavişna, Corc Benson, El Cerrou orkestrinin musiqi motivləri əsasında yazılıb”. Mən sizin başqa hekayələriniz də oxumuşam. Onların hamısı bu və ya digər dərəcədə “musiqilidir”. Musiqiyə nə dərəcədə dərindən uymusuz və La Manqda yeni nə yazırsız?***

- Bu, ədəbi psevdonimdir. Mən onu öz qurum - German Hessenin təsiri altında seçmişəm. “Stephan Wolf” imzası isə “Yalquzaq” sevimli romanın şəkli dəyişdirilmiş adıdır (Steppenwolf). Düzünü desəm, indi mən Mütləqlə yalnız musiqi vasitəsilə ünsiyyətdəyəm. İspaniyadakı bütün 4 illik həyatımda bircə bədii mətn belə yazmaq mənə müyəssər olmayıb. Siz axı özünüz də yaxşı bilirsiniz ki, yazıçı üçün ilham pərisi və hövsələ nə deməkdir. Hərgah, məndə ilham da var, hətta kifayət qədər material toplanıb, di gəl, emosional enerji yoxdur. Hər necə olmasa, həyatımın bu mərhələsində məndə musiqi dominantlıq edir.

Burada La Manqda mənim dostlarım - müxtəlif ölkələri və xalqları təmsil edən həmfikir musiqiçilər var. Musiqi bizi birləşdirir. Biz bu 7 notdan ibarət möcüzənin əsiriyik. Mən mütlələ olmağımızı yalnız bu cür eksperimentlərlə izah edə bilərəm. Bundan başqa, mən öz uşaqlıq dostum Salman Qəmbərovla daimi əlaqədəyəm. O, hətta keçən il mənə qonaq gəlmişdi. Onunla dünyanın arzuladığı bir ifaçı olaraq fəxr edirəm. O, dünya əhəmiyyətli, mükəmməl və avanqard musiqiçilərlə çalır.

Biz hələ də inersiya üzrə Bakını “caz şəhəri” adlandırırıq, elə deyilmi? Bu ad ona yapışıb, hərçənd belə bir iddianın reallıqla heç bir əlaqəsi yoxdur. Bu ənənəyə nə oldu, nədən Bakını belə bir mühüm, sivil komponentdən məhrum elədilər? Azərbaycanda gözəl, istedadlı, musiqidən fundamental şəkildə baş açan gənclik var. Biz dərin musiqi ənənələri olan ölkəyik. Çəkinmədən deyirəm: azərbaycanlılar musiqili xalqdır. Elə isə nə baş verdi? Bir dəfə necə oldusa burada Rusiyadan olan bir turistlə tanış oldum. Hardan olduğumu bilən kimi Vaqif Mustafazadəyə heyranlığını bildirdi. İspaniyada bir rusdan Vaqif haqda, Azərbaycan cazı haqda bunca xoş söz eşitmək çox gözlənilməz idi.

***- Sizin bioqrafiyanızda mərhum şair Aydın Əfəndi ilə dostluq səhifələri də var. O kim idi?***

- Aydın əsl, təmiz şair idi, qəlb adamı idi. Biz onunla 160 saylı məktəbdə oxumuşuq. O zaman mən də şeir yazırdım. Amma Aydın, əlbəttə ki, rəqabətdən kənarda idi. O illər məni o, yasaq edilmiş Kamyü ilə tanış elədi. Məhz Aydının sayəsində müasir Qərb fəlsəfəsindən anlamağa başladım. Onun poeziyası - başdan-ayağa güclü ehtirasdır. Onun əzabları, iztirabları idraka sığmır. Sanki o, fani dünyanın bütün ağırlığını öz üzərinə götürmüşdü. Aydının yaralı qəlbi o tərəf - bu tərəfə vurnuxur, dinclik tapa bilmirdi. O yazırdı:

“Поэт поэту
через тыщи лет
несет наиветшайший свой завет:
не живи слишком пестро,
сотвори себе остров,
укрепись в одиночестве".

(Təxmini tərcümə: “Şair şairə az illər sonra öz müdrik vəsiyyətini edir: çox təmtəraqlı yaşama, özünə ada yarat, tənhalıqda qal”).

Mənim başqa bir dostum - anadangəlmə rəssam Ucal Haqverdiyev də güclü ruha malik, emosiyalı adam idi. Ancaq onun da, Aydının da sonu faciəvi oldu. Onlar elə tez getdilər ki. Sanki tələsirdilər. Mən isə yaşayası oldum. Ağırdı bütün bunlar, ağla sığmır. Ancaq ola bilsin, mən müqəddəs “Yaqub yolu”nda bəzi suallara cavab tapdım. Bu il mən Santyaqo de-Kompostelə ziyarətə hazırlaşıram. Bu, məbədləri, qonaq evləri və finalda Atlantik okeanı ilə uzun bir yoldur.

***- Bir skeptik (bədbin - red.) olaraq mənim üçün bu ziyarəti şərh eləmək qəlizdir. Ancaq bu “Yol”da sizə səmimi-qəlbdən uğur arzu edirəm. Təəssüratlarınızı bilmək üçün qayıdışınızı səbrsizliklə gözləyəcəyəm. Dünyəvi işlərə qayıdıb da sizdən Avropaya emiqrasiyanız haqda soruşmaq istərdim. Deyəsən, siz ilk dəfə Almaniyada 1992-ci ildə olmusunuz!***

- Doğrudur, bu 92-ci il idi. Həmin il xəyalpərəst Əzimov dünyasını dəyişmişdi. Təkcə Azərbaycan yox, bütün İttifaq alovlanmışdı. Axmaq bir dövr idi, baş verənlər psixikanı dağıdırdı. Ya özünü asmalı, ya da qaçmalı idin.

Münhendə olanda ilk işim iri şəhər xəstəxanalarından birinə getmək oldu - cibimdəki iki arqumentlə: ingiliscə sərbəst bilirəm və həkim diplomum var. Amma mənə çox tez anlatdılar ki, alman dilini öyrənmədən heç bir həkimlik işi məni gözləmir. Sanitar işindən başlamaq isə heç ürəyimcə deyildi. Odur ki, özüm üçün hesabladım, alman dilini öyrənmək üçün nə qədər vaxt lazım ola bilər və tez də anladım: “Azadlıq” radiosunun mənzil-qərargahında, ola bilsin mənim gəlməyimə daha şad olarlar.

Radioda əfsanə adamla - Mirzə Xəzərlə tanış oldum. O adamla ki, səsini xüsusən də yanvar hadisələri günlərində bütün Azərbaycan dinləyir, hər sözünü öz canına çəkirdi. Onunla uzun-uzadı söhbət elədik. Çox şeydən, o cümlədən işsizlikdən danışdıq. O, hər şeyi başa düşdü və mənə radio jurnalisti olmağı, hər gün “Azadlıq” radiosunun efirinə çıxmağı təklif elədi. Bu, inanılmaz idi.

“Azadlıq” radiosunun Azərbaycan xidmətində türklər işləyirdi. Münhendə 90-cı illərin əvvəllərində Mirzə Xəzər azərbaycanlıları hardan tapasıydı ki? Əlbəttə, ingilis dilini bilməyim, - buna görə Azərbaycanın görkəmli amerikanisti, əziz dostum və müəllimim Faiq Əhmədoviç Hacıyevə minnətdaram, - mənim muzdlu işlə bağlı şanslarımı xeyli artırırdı. İngiliscəm radioda ilk işçi dilim oldu. Ancaq Mirzə Xəzər mənim qarşımda şərt qoydu: ən qısa zamanda ədəbi Azərbaycan dilini öyrənmək. O, uzun müddət nazla oynayan adam deyildi. “Ədəbi dili mütləq öyrənin! Güc vurun, gecə-gündüz çalışın. Belədə diksiya, səs qaydasındadır. Di gəl, Ordubad ləhcəsi - hansı ki, azərbaycanca danışmağa cəhd edəndə sizdə nədənsə özünü göstərir, bax, onu boş verin, ona dəyməyin. Sadəcə, düzgün danışmağı öyrənin”,-deyirdi.

***- O, sizdən ötrü şefdən daha çox müəllim idimi?***

***(Davamı olacaq)***

❑ **Ələkbər ƏLİYEV, yazıçı İsveçrə**





# Alpinistlərin itkin düşməsindən 4 ay ötdü

## Tufandağ üç alpinistlə bağlı sirrini vermir...

**Quba rayonunda dağlıq ərazidə itkin düşmüş gənc alpinistlər - Namin Bunyatzadə, Babur Hüseynov və Fəridə Cəbrayılzadənin axtarışları 4 aydır ki, nəticə vermir. Alpinistlər ötən il dekabrın 23-də Tufandağ istiqamətində hərəkət edərkən onlarla əlaqə kəsilib.**

Ötən günlərdə alpinistlərin axtarışına Fövqəladə Hallar Nazirliyinin aviasiya dəstəsinin "Mi-17" markalı helikopteri, Şimal Regional Mərkəzinin axtarış-xilasetmə qrupu, Xüsusi Riskli Xilasetmə Xidmətinin dağ-xilasetmə dəstəsi və peşəkar alpinistlərdən ibarət könüllü dəstə, eləcə də xaricdən dəvət olunan alpinistlər cəlb olunublar. Lakin bütün bu cəhdlərə baxmayaraq, onların axtarışları nəticə verməyib. Ekspertlər bildirirlər ki, alpinistlərin soyuq qış aylarında tapılması mümkün deyil. Çünki ərazidə hava şəraiti və relyef olduqca mürəkkəbdir. Eyni zamanda qar uçqunları nəticəsində onların olduqları güman edilən yerdə hündür qar təpələri yaranıb. Buna görə də ümid yalnız havaların isindiyi aylardır. Daha dəqiq desək may, iyun aylarında itkin alpinistlərin cəsədləri tapıla bilər.

Hazırda da ərazidə Fövqəladə Hallar Nazirliyinin əməkdaşları axtarışları davam etdirirlər. Onlar yanvar ayından etibarən hava şəraiti imkan verdikcə bir gün də olsun axtarış yerini boş qoymayıblar. Ötən həftə məlumat yayılmışdı ki, Xınalıq ərazisində dağlara 40 santimetrdən çox qar yağıb. Bu, axtarışların da aparılmasına mənfi təsir göstərmişdi. Lakin öyrəndik ki, hazırda Fövqəladə Hallar Nazirliyinin əməkdaşları axtarış işlərini davam etdirirlər və mövcud hava şəraiti axtarış üçün maneə yaratmır.

**"Yeni Müsavat"a danışan dağçı-fotoqraf Elçin Quliyev** bildirib ki, hazırda könüllü alpinistlərin əraziyə yaxınlaşması mümkün deyil. Axtarışları yalnız Fövqəladə Hallar Nazirliyinin əməkdaşları aparırlar: "Son günlərdə əraziyə heç kim buraxılmayıb. Biz əraziyə gedib, axtarışlara qoşulmaq istədik. Lakin bildirdilər ki, əraziyə kimsə buraxılmır. Yalnız oradakı qrup işləri aparır. Ötən həftə başqa bir layihə üçün həmin əraziyə yollanmışdım. Orada da dedilər ki, qar yağdığı üçün ərazidə təhlükə var. Ona görə yaxınlaşmağa imkan vermədilər. Həmçinin hazırda bütün zirvələrə yürüşlər dayandırılıb. Hər il adətən may ayında Heydər Əliyev zirvəsinə yürüş olurdu. Bu il, hələ ki, həmin yürüşlə bağlı da xəbər yoxdur. Gözləyirik ki, bəlkə yeni təyin olunan ekologiya və təbii sərvətlər naziri məsələ ilə bağlı fərqli qərar qəbul edəcək. Ancaq, hələ dediyim kimi, dəyişən bir şey yoxdur".

E. Quliyev hesab edir ki, artıq alpinistlərin cəsədləri tapıla bilər: "Əgər onlar biz dediyimiz ərazidə qarın altında qalıblarsa, may-iyun aylarında böyük ehtimalla tapılacaqlar. Artıq may ayında həmin dağda qar əriməyə başlayır. Bunun nəticəsində də, təbii ki, əgər alpinistlərin cəsədləri qarın altındadırsa, əriməə nəticəsində üzə çıxacaq. Diqqət etmək lazımdır ki, qar əriməsi nəticəsində onların cəsədləri su ilə axıb kənar yerlərə getməsin. Buna da orada axtarış aparan şəxslər nəzarət edəcəklər".

**"Gilavar" - hava və ekstrim idman klubunun direktoru Ziya Qasımov** isə "Report"a bildirib ki, indiyə qədər alpinistlərlə bağlı heç bir izə rast gəlinməyib: "Hazırda hava şəraitinə görə, axtarış işləri müvəqqəti dayandırılıb. Çünki hava şəraiti çox kəskindi, güclü qar yağır və duman var. Əraziyə çıxmaq təhlükəlidir".

Klub direktoru qeyd edib ki, alpinistlərin axtarışı ilə 20 nəfər məşğul olur: "Axtarışlarda iştirak edənlərin 10 nəfəri Fövqəladə Hallah Nazirliyinin işçisidir. Digər 10 nəfər isə könüllüdür. Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev də ərazidədir".

Qeyd edək ki, alpinistlərin itkin düşməsi ilə bağlı cinayət işi açılıb. Hadisə ilə əlaqədar xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərindən istifadə sahəsində qanunvericiliyin tələblərinə əməl edilməməsinə, habelə adları qeyd olunan alpinistlərin ixtisası, təcrübəsi, hazırlıqlarının yürüşə imkan verib-verməməsi, meteoşəraitin dağın zirvəsinə qalxmağa əlverişli olub-olmaması, marşrutun seçilməsi və təhlükəsizlik tədbirləri ilə bağlı digər məsələlərə nəzarət edilməsi sahəsində məsul şəxslərin öz xidməti vəzifələrini lazımi qaydada yerinə yetirməməsinə dair şübhələr üçün kifayət qədər əsaslar yarandığından Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**



# Peyğəmbəri təhqirə görə dostunu öldürənə məhkəmə bəraət verdi

## Prokuror çıxışında Vüqar Həsənovun 19 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi

**Allahı və peyğəmbəri təhqir etdiyi üçün dostunu qətlə yetirməkdə təqsirləndirilən Vüqar Həsənovun cinayət işi üzrə məhkəmə iclası davam edib. Musavat.com-un məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib.**

Prokuror çıxışında Vüqar Həsənovun 19 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Təqsirləndirilən şəxs bildirib ki, qətli törətməsəydi dostu onu öldürəcəkdi: "İşimə ədalətli baxmağınızı xahiş edirəm".

Məhkəmənin hökmü ilə Vüqar Həsənovun qətli özünümüdafiə məqsədilə törətdiyi qənaətinə gəlinib. Onun barəsində bəraət hökmü çıxarılıb.

O, yalnız silah saxlama maddəsi ilə 9 ay müddətinə azadlıq məhrum edilib.

Qeyd edək ki, hadisə ötən ilin oktyabr ayında Bakının Xətai rayonu ərazisində baş verib. Paytaxt sakini, 31 yaşlı Vüqar Əbdülhəmid oğlu Həsənov Günəşli qəsəbəsi, General Mehmandarov küçəsi 20 ünvanında dostu Elşən Məmmədovla mübahisə edib.

Mübahisəyə səbəb isə mərhumun Allahı və peyğəmbəri təhqir etməsi olub.

Belə ki, E.Məmmədovun azyaşlı övladı xərçəng xəstəliyindən dünyasını dəyişib. V.Həsənov da dostunun oğlunun yas mərasimi günü orada iştirak edib. E.Məmmədov oğlunun ölməsinə üzüldüyünü və buna görə Allahı və peyğəmbəri günahkar bilib və nalayiq ifadələr işlədib.

Daha sonra V.Həsənov dostuna etiraz edib. Bundan sonra hər iki şəxs arasında mübahisə yaranıb. Onlar mübahisələrini yas mərasimindən kənarda etməyə başlayıblar.

Mübahisə qanlı sonluqla nəticələnib. Onlar əvvəl bir-birilərinə bıçaqla xəsarətlər yetiriblər.

Nəticədə ağır xəsarət alan V.Həsənov 3 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilib. Onun bıçaqladığı şəxs isə hadisə yerində dünyasını dəyişib. Əraziyə Xətai RPİ-nin əməkdaşları cəlb olunub, müayinələr aparılıb.

Məlumata görə, hər iki şəxs eyni məhəllədə yaşayıb və dost olublar. Onların hər ikisi Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə əvvəllər məhkum ediliblər.

# Taksi və avtobuslarla bağlı yeni cərimələr gəlir

## Təkcə taksometrin olmamasına görə yox, həm də onun nasaz və ya plombu pozulmuş olmasına görə cərimə müəyyən edilir

**Yol hərəkətinin təşkili və yol hərəkət qaydaları üzrə tanınmış ekspert Ərşad Hüseynov İnzibati Xətalar Məcəlləsinə edilən və dünən rəsmən imzalanan dəyişiklikləri şərh edib. Lent.az xəbər verir ki, ekspert dəyişikliklərin taksi sürücüləri üçün maraqlı olacağını deyib: "Taksilərin tək-tükündə taksometr var. Bəzən DYP taksi sürücülərinə bu qurğu olmadığına görə İXM-in 322.0.2-ci maddəsinə əsasən, 40-50 manat cərimə yazırdı.**




Təsdiqlənən dəyişikliyə görə, təkcə taksometrin olmamasına görə yox, həm də onun nasaz və ya plombu pozulmuş olmasına görə cərimə müəyyən edilir. Amma bu dəyişiklik 1 yanvar 2019-cu ildən qüvvəyə minir. Qanunda birbaşa göstərilir ki, bu dəyişiklik qüvvəyə minənədək həmin xəta köhnə redaksiyada da tətbiq edilə bilməz. Bu isə o deməkdir ki, heç bir taksi sürücüsü 1 yanvar 2019-cu il tarixinədək taksometrin olmamasına görə cərimələnə bilməz. Görünür, düşünürlər ki, 1 yanvar 2019 tarixinədək taksilər taksometrlə təmin olunacaq".

Ekspert İnzibati Xətalar Məcəlləsinə edilən və dünən rəsmən imzalanan başqa bir dəyişiklik olan taxoqrafdan istifadə ilə bağlı fikirlərini də bölüşüb: "Bu dəyişiklik də 1 yanvar 2019-cu ildən qüvvəyə minir. Yenilik odur ki, 1 yanvar 2019-cu ildən daxili daşımalarda da taxoqrafdan istifadə etməyənlər cərimələnəcək.

Ölkədaxili daşımalarda taxoqrafın olması bu avtobuslar və yük avtomobilləri üçün məcburidir:

- icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri üçün (maksimum sürəti 40 km/saatdan az olanlar istisna olmaqla);

- şəhərlərarası (rayonlararası) sərnişin daşımalarında istifadə olunan avtobuslar üçün (daşıma məsafəsi 50 km-dən az olanlar istisna olmaqla).

Şəhəriçi avtobuslar və taksilər üçün, eləcə də kiçik yük avtomobilləri üçün taxoqraf nəzərdə tutulmur.

Bu dəyişikliyə qədər yalnız beynəlxalq daşımalarda taxoqrafdan istifadə etməyən avtobuslara və yük avtomobillərinə görə cərimə var idi. Maraqlısı odur ki, həmin cərimə bu gündən ləğv olunur, yeni cərimə isə 1 yanvar 2019-dan qüvvəyə minir.

Deməli, indən sonra 1 yanvar 2019-dək beynəlxalq daşımalarda da taxoqrafdan istifadə etməyən avtobuslara və yük avtomobillərinə görə heç kəs cərimələnə bilməz.

Amma ölkədaxili daşımalarda kütləvi taxoqraflaşma yaxın müddət üçün inandırıcı deyil".

# İranda dövlət çevrilişinə hazırlıq iddiası

## Ordu və Ruhani komandası arasındakı savaş hansı nəticəni verə bilər?

**İranda ordu, yəni "Sepah" və hazırkı hökumət arasında gərginlik artır. Doğrudur, generallar və bürokratlar arasında narazılıq hazırda söz "atışması" şəklindədir, amma artıq irəli gedərək dövlət çevrilişinin ola biləcəyini iddia edənlər var. Hələlik hər iki tərəfin nəzarətində olan media, demək olar ki, hər gün qarşılıqlı ittihamlarla dolu yazılar yayır, ara-sıra rəsmilər də bir-birini hədəfə alırlar.**



Qeyd edək ki, ötən həftə prezident Həsən Ruhani çıxışında deyib ki, İran ordusu komandanları siyasət sahəsində təcrübələri və bilikləri olmasına baxmayaraq, daxili siyasətə müdaxilə etmir. Eyni zamanda əlavə edib ki, hazırkı ordu generallarının adı şah dövrü generalları kimi korrupsiyaya bulaşmayıb. Ancaq bu açıqlama üstüörtülü şəkildə İnqilab Keşikçilərinə mesaj kimi qəbul olunub. Çünki İranda İnqilab Keşikçiləri ölkənin bütün sahələrində ciddi təsir gücünə sahibdirlər.

Gözlənildiyi kimi, ordudan bu açıqlamaya cavab sərt olub. General Əbdürrəhim Musəvi deyib ki, "bu ifadələrdən istifadə edənlər İran rejimində İnqilab Keşikçilərinin rolunu ya bilmir, ya da bilməməzlik edirlər".

Bu "atışmaları" isə bəzi media orqanları hərbi çevrilişin siqnalı kimi qələmə veriblər. Ancaq ali dini lider proseslərə birbaşa qarışmır, necə deyərlər, hər iki tərəfin ölçünü gözləməsi, həddi aşmasını tarazlamağa çalışır. İki gün əvvəl generalları qəbul edən dini lider general Musəvini dəstəkləyən açıqlama verib. Ancaq, təbii ki, ordunun qarşısında dayanan yeganə güc ali dini liderdir.

Yeri gəlmişkən, bu ilin əvvəlində ordunun iqtisadi sektordan çəkiləcəyi xəbərlər yayıldı. Müdafiə naziri general Hatəmi bildirdi ki, ali dini liderin göstərişinə əsasən, silahlı qüvvələr (burada söhbət daha çox əsasən muxtar qurum olan SEPAH-dan gedir - K.R.) iqtisadi, istehsal fəaliyyətlərindən çəkiləcək. İSNA Agentliyinin xəbərində qeyd olunurdu ki, bu ilin sonuna qədər orduya bağlı şirkətlər özəlləşdiriləcək və silahlı qüvvələr istehsal firmalarından imtina edəcək. Nazir deyib ki, silahlı qüvvələr ən tez müddətdə sərmayə bazarını tərk edəcək. Hətta çəkiləcək bəzi şirkətlərin adlarını da qeyd edib.

Məsələ ondadır ki, Yaxın Şərqin bir çox milli dövlətləri kimi, İranda da ordu uzun illər "dövlət içində dövlət" kimi fəaliyyət göstərib. İranda bu missiya "Sepah" (İnqilab Keşikçiləri Korpusu - K.R.) üzərində olub. İran İslam İnqilabından az sonra yaradılmış "Sepah" birbaşa ali dini liderə tabe olan, ölkədə inqilabın mühafizəsi funksiyasını daşıyan qurumdur. "Sepah" ölkə daxilində asayişin qorunması, kütləvi etirazların, islamçı hakimiyyətin əsaslarının sarsıdılmasına qarşı dayanan əsas güc olaraq formalaşıb. Bu səbəbdən də yalnız silahlı qüvvələr şəklində deyil, "Sepah" könüllü birlikləri (Bəsic), etiraz aksiyalarının yatırılmasında iştirak edən qüvvələr, həmçinin mədəniyyət sahəsində fəaliyyət də göstərir. Təbii ki, birbaşa dini liderə tabe olan bu qüvvələrin özünün istehsal və sənaye müəssisələri, maliyyə gücü olub. Məlum olduğu kimi, İran iqtisadiyyatında "bonyadlar" və ya başqa adla vəqflərin payı 70-80 faiz arasında dəyişir. İnqilab Keşikçiləri iqtisadi sektorda böyük vəqflər sayəsində fəaliyyət göstərir və hazırkı ölkə iqtisadiyyatında, o cümlədən istehsal və xaricdəki İran şirkətlərində böyük paya sahibdir. Həsən Ruhani və onun mənsub olduğu qanad isə hələ illər əvvəldən "keşikçilər"lə yola getmir.

Məsələ ondadır ki, 1997-2005-ci illərdə hakimiyyətdə olan prezident Məhəmməd Xatəminin zamanında İranda "islahatçı" qanadın ən parlaq dönəmi olub. Ancaq eyni zamanda bu dönəmdə "islahat" cəbhəsinə qarşı formalaşan cəbhədə hərbçilər xüsusi yer tutmağa başlayıb, hökumətin tənqidi, eləcə də yol verdiyi boşluqlar (bunlar hər iqtidar üçün xarakterikdir - K.R.) "keşikçilərin" nüfuzunun artmasına səbəb olub. Məhz bunun nəticəsidir ki, 2000-ci illərin əvvəlində parlamentdə, eləcə də böyük şəhərlərin bələdiyyələrində ordudan, xüsusən də "Sepah"dan gələn adamların sayı artmağa başlayıb. Bunun nəticəsidir ki, o illərdə Tehranın bələdiyyə sədrləri Mahmud Əhmədinejad və Məhəmməd Baqir Qalibaf "Sepah"dan idi. 2005-ci il prezident seçkilərində isə 3 namizəd Mahmud Əhmədinejad, Məhəmməd Baqir Qalibaf və Möhsin Rezayi "Sepah"dan idi. Daha sonra bu gedişat dəyişmədi və İranda "Sepah" şəxsində ordu siyasi proseslərdə hər zaman söz sahibi oldu və ya əsas güclərdən biri idi.

Ancaq 2009-cu il seçkilərində Mahmud Əhmədinejad şübhəli seçkilərdə qalib elan olunduqdan sonra etiraz edənlərə qarşı dövlət və əsas da ordu güc qoydu. Bununla da ilk dəfə olaraq ordu siyasi proseslərə açıq müdaxilə etmiş oldu. Dini lider isə seçkilərə qarışmadı və etirazların yatırılmasını müdafiə etdi. Bilindiyi kimi, 2009-cu il hadisələri İran cəmiyyətində ciddi travmaya səbəb oldu.

Bu səbəbdən də dini liderin bundan sonra növbəti dəfə siyasi proseslərə, seçkilərə müdaxilə etməsi gözlənilən və inandırıcı deyil. Ancaq aydın məsələdir ki, ali dini lider generallarla Ruhani kabineti arasında münaqişənin dərinləşməsini və dövləti bürüməsini istəmir. Üstəlik, dövlətin və dini sistemin əsas dayağı hesab etdiyi İnqilab Keşikçilərinin zəif düşürülməsini istəmir. Lakin generalların da İranda çevriliş etməsinə razılıq verə bilməz, bu, onsuz da həssas olan daxili siyasi vəziyyəti daha da pisləşdirər, ölkəni xaosa sürükləyər. Ruhaninin isə hələ 3 ili var. Baxmayaraq ki, onun apardığı iqtisadi xətt İranda o qədər də rəğbət doğurmayıb. Xüsusən də Qərblə anlaşma və barışma planı Trampdan sonra ciddi risk altındadır. Bu prosesin gedişi, üstəlik, Yaxın Şərqdə yenidən savaş çağırışlarının güclənməsi 2005-ci ildə olduğu kimi, 2021-ci ildə "mühafizəkar" (ola bilsin ki, hərbi sektordan - K.R.) şəxsin prezidentliyə yolunu açacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Bir erməni Kanadanı terrorla necə silkələdi...

## Torontoda baş verən terrorla bağlı şübhəli dözümlülük - ortada xristian faktoru var

**Aprelin 23-də Kanadanın Toronto şəhərində sürücü avtomobili səkiyə çıxararaq piyadaların üzərinə sürüb. İnsident nəticəsində 9 nəfər ölüb, 16 nəfər yaralanıb. Sürücü saxlanılıb, cinayətin motivləri müəyyənləşdirilir. Sürücü hüquq-mühafizə orqanlarına tanış şəxs olub. Lakin bu məlumat, hələ ki, öz rəsmi təsdiqini tapmayıb. Hadisənin səbəbləri sırasında terror aktı versiyası nəzərdən keçirilir. Hələlik bunun birmənalı şəkildə terror kimi qiymətləndirilməsi baş verməyib.**






Məlum olub ki, hadisəni erməni əsilli 25 yaşlı Alek Minasyan hadisəni kirayəyə götürülmüş yük maşını ilə törədib. O, Riçmond Hill qəsəbəsindən Torontoya gəlib. Toronto polis şefi Mark Saunders, hadisənin bir terror hücumu olmasına ilə bağlı hər hansı sübut əldə edilmədiyini, amma bunun qəsdən həyata keçirildiyini bildirib.

Hücumdan sonra ilk müdaxilədə iştirak edən heyəti təbrik edən baş nazir Castin Trudeau aşağıdakıları deyib: "Hamımız şəhərlərimizin küçələrində təhlükəsiz şəraitdə yeriyə bilməliyik. Bu vəziyyəti yaxından izləyir və bütün kanadalıların təhlükəsizliyini təmin etmək üçün ölkə miqyasında təhlükəsizlik xidmətlərimizlə çalışmağa davam edəcəyik".

Cinayətin əvvəlcədən planlaşdırıldığı və məqsədli şəkildə törədildiyi güman edilir.

Polis bəyan edib ki, ilkin məlumatlara görə, sürücü şüurlu şəkildə hadisəni törədib. Buna görə də insident terror aktı kimi qiymətləndirilib.

Hadisənin rezonans doğurmasına səbəb "Böyük yeddilik" ölkələrinin XİN rəhbərlərinin görüşünün Torontoda keçirilməsi olub...

Son belə terror hadisəsi Amerika Birləşmiş Ştatlarının Texas ştatında ötən ilin noyabrında baş verib. Həmin vaxt baptist kilsəsinə daxil olan silahlı şəxs orada ibadət edənlərə atəş açıb. İlkin məlumata görə, hadisə nəticəsində 27 nəfər həlak olub, 24 nəfər isə yaralanıb. Terror hadisəsini törədən şəxs isə polis tərəfindən zərərsizləşdirilərək öldürülüb. Məlumata əsasən, baptist kilsəsinə daxil olaraq atəş açan 26 yaşlı Texas ştatı sakini Devin Patrik Kelli olub. Onun 2010-2014-cü illərdə ABŞ Silahlı Qüvvələrində hərbi xidmətdə olduğu, 2014-cü ilin mayında hərbi tribunalın qərarı ilə ordudan xaric edildiyi məlumdur.

Norveçdə isə 77 adamı öldürən Breivik məhkəmədə Utöya adasında törətdiyi terror aktını soyuqqanlılıqla izah etmişdi. O, "mən əslində yaxşı insanam, sadəcə, yaxşılıq etməyi unutmuşam" demişdi. O, məhkəmədə bildirmişdi ki, döyüşə gedərkən əvvəlcədən psixoloji hazırlıq görüb. Məhkəmənin sonunda Breivik Əl Qaidənin dünyadakı ən uğurlu təşkilat olduğunu söyləyib.

Eyni hal bir müddət öncə ABŞ-ın Las-Veqas şəhərində baş verən qətllə bağlı yaşanıb. Hadisə "Madalay Bay" hotel-kazino kompleksi yaxınlığında musiqi festivalında atışma zamanı baş verib. Hotelin 32-ci mərtəbəsindən festival iştirakçılarının atəşə tutulması nəticəsində 50-dən çox insan ölüb, təxminən 400 nəfər yaralanıb. Hadisəni törədən şəxs polis tərəfindən tutulacağını görüb özünü öldürüb. Onun 64 yaşlı yerli sakin Stiven Paddok olduğu müəyyənləşib.

22 mart 2016-cı ildə Belçikanın paytaxtı Brüsseldə ard-arda bir neçə terror hadisəsi baş verib. Partlayışlar Zavengen Beynəlxalq Hava Limanında və metroda törədilib. Terror hadisəsi nəticəsində 34 nəfər ölüb, 250 nəfər isə yaralanıb.

Eyni ilin iyunun 12-də ABŞ tarixində 11 sentyabr terror aktlarından sonra ən çox insanın öldürüldüyü terror hadisəsi baş verib. Florida ştatındakı Orlando şəhərində "Pulse" adlı gecə klubunda baş vermiş güllləbaran zamanı, qatil də daxil olmaqla, 51 nəfər ölüb, 53 nəfərdən çox insan isə müxtəlif bədən xəsarəti alıb.

Son iki hadisəni törədənlər də xristianlar olub. Amma sosioloqlar maraqlı bir müşahidə paylaşır ki, adətən Avropada müsəlmanlar tərəfindən törədilən cinayətlər daha çox qabardılır. Bununla da müsəlmanların terrorçu olması, onların Qərb ölkələrində dağıdıcılıq etməsi ilə bağlı təəssürat formalaşdırmağa çalışırlar. Bunun qabardılmasında bir başqa faktor da, heç şübhəsiz, Avropaya axışan mühacirlərin qarşısını almağa çalışmaqdır. Bəzi Avropa ölkələrində miqrantlara qarşı aqressiv münasibət zaman-zaman keçirilən aksiyalarda özünü göstərir. Belə ki, sadə avropalılar bir çox hallarda miqrantların - onların daha çox müsəlman ölkələrindən gəldiklərini nəzərə alsaq - ölkənin rifahı, insanların təhlükəsizliyi üçün təhlükə olması fikrini qabartmağa, bundan başqa, vətəndaşların vergiləri hesabına miqrantlara sosial təminat verilməsinə qarşı çıxırlar. Amma aləhəzrət fakt bir şeyi deyir - terrorçunun dini, dili, sosial mənsubiyyəti olmur. Terror beyində formalaşan və sonra əmələ keçən zərərli bir haldır.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 89 (6978) 25 aprel 2018



## Duzlu yemək yeyirsizsə.... gec qocalacaqsız

Georgia Regent Universitetinin professorları tərəfindən aparılan araşdırmalar nəticəsində məlum olub ki, duzlu yeməklər yaşlanmanı sürətləndirir. Normadan çox duzlu yeməklər yeyən adamlar nəinki tez yaşlanır, onların ürək-damar xəstəliklərinə tutulma və iflic olma riskləri də artır. İnsan ömrünün uzunluğuna təsir edən amillər - stress, siqaret, idman da ən az duz qədər insan həyatına təsir göstərir. Yaşları 14 ilə 18 arasında dəyişən 766 nəfər üzərində aparılan təcrübə zamanı gənclərin duzdan nə qədər istifadə etdiyi araşdırılıb. Mütəxəssislər duzdan daha çox istifadə edən adamların normadan daha çox kök olduqlarını da deyiblər. Duzdan qaynaqlanan kökəlmə prosesi infeksiyalara səbəb olur və bu da hüceyrələrin daha tez yaşlanmasına səbəb olur.

## Paltar səbətindən 1 metr 30 santimetrlik ilan çıxdı

Mersinin Ərdəmli ilçəsində bir evdəki çirkli paltarların altından ilan çıxıb. Evə çağırılan xilasetmə xidməti ilanı evdən çıxarmağa çalışıb. Birmərtəbəli və bağçalı olan ev Mustafa Diker adlı şəxsə məxsusdur. Ailə fərdləri ilanı zərərsizləşdirmək istəsələr də, buna nail olmayacaqlarını anlayıblar. Hadisə yerinə gələn xilasedicilər isə boz ilan olaraq tanınan 1 metr 30 santimetr uzunluğundakı ilanı yaxalayıb. Daha sonra evdə başqa ilanın ola biləcəyi ehtimalına qarşı evdə axtarış aparan heyət yaxaladıqları ilanı isə təbiətə buraxıb.

# 1.85 uzunluğu, 100 kilo çəkisi olan balıq tutdu

Türkiyənin Ağrı şəhərində həvəskar balıqçı İrfan Aras dostları ilə birgə getdiyi Araz çayında boyundan böyük balıq yaxalayıb. Ev dekorasiyası işi ilə məşğul olan Aras dostları ilə birlikdə həftə sonu tətilində balıq tutmağa gedəndə şok bir nəticə ilə qarşılaşıb. Boyu 1.85 olan və təxminən 100 kilo ağırlığında balığı dostları ilə birlikdə, olduqca çətinliklə sahilə çıxaran Aras öncə balıqla selfie çəkdirib. Şəkil çəkdirəndən sonra da balıqları aralarında bölüşdürdüklərini deyib. İ.Aras "hobbi olaraq həvəskar kimi öz imkanlarımızla boş vaxtlarımızda balığın bol olduğu Araz çayına gedirik. Bu qədər böyük balıq tutmağımız bizim üçün də sürpriz oldu".



# Hədsiz arıqlıqdan sosial şəbəkə sayəsində xilas oldu

İtaliyanın Paduya şəhər sakini etiraf edib ki, anoreksiya xəstəliyindən İnstaqram sosial şəbəkəsi sayəsində müalicə olunub. 2013-cü ildə Silvia Faşans 44 kiloqram çəkisində, 177 santimetr uzunluğunda idi. İtalyan qızın sözlərinə görə, çəkisini itirməsinə nənəsinin ölümünə görə keçirdiyi depressiya səbəb olub. Həmin vaxt qohumları da onunla ünsiyyəti kəsiblər. Instagram vasitəsilə Faşans öyrənib ki, anoreksiyadan əziyyət çəkən qızlar çoxdur. Onlarla ünsiyyət onu bu bəladan xilas edib və düzgün qidalanma rejiminə keçib. Qızların məsləhətinə əməl edərək 22 yaşlı qız idman zallarına gedib və öz qida rasionuna diqqət edib. Hazırda o, müntəzəm olaraq öz idman məşğələləri barədə sosial şəbəkədə fotolar paylaşır.






## Pişiklər insanda vərəm yaradırmış

Dünyada ilk dəfə pişiklərdən insanlara xəstəlik yoluxub. Uzun müddət davam edən araşdırmalardan sonra İngiltərədə yaşayan iki nəfərdə vərəm xəstəliyi müşahidə edilib. İngiltərədə evlərdə saxlanılan pişiklərdən insanlara yoluxan xəstəlik dünya mediasının gündəmindən düşmür. "Daily Mail" qəzetində yayımlanan araşdırmanın nəticələrinə görə, sözügedən xəstəlik böyük baş heyvanlardan porsuqlara, porsuqlardan siçanlara, onlardan pişiklərə, pişiklərdən də insanlara yoluxub. Xəstəliyə tutulan adamlardan ikisi aktiv, ikisi isə passiv xəstəlik daşıyıcısıdır. Xəstəliyə tutulan heyvanlardan altısı ölüb, ikisi yaşayır, biri isə qaçıb. Virus tənəffüs yolu ilə və ya yaraya toxunduqdan sonra yayılır. İngiltərədəki pişik sahibləri xəstəlik yaymaqda təqsirli bilinirlər. Bu xəstəlik ağ ciyərlərlə yanaşı, sümüklərə və böyrəklərə də zərər verir.




**QOÇ** - Ötən üç günü müəyyən gərginliklə başa vursanız da, bu gündən etibarən vəziyyət xeyli dəyişəcək. Odur ki, nəticənin uğurlu olacağını nəzərə alıb təmkin göstərib fəal olun.

**BUĞA** - Bu qədər dözmüsünüz, bir az da səbr edin. Nəzərə alın ki, bu gözəl gün sizə böyük sürprizlər vəd edir. Amma ulduzlar daha çox fəaliyyətlə məşğul olmağınızı məsləhət görür.

**ƏKİZLƏR** - Ulduzların düzümü əsəbi situasiyalardan uzaq olmağınızı, əvəzində aktivliyi artırmağınızı tövsiyə edir. Axşama yaxın maddi durumunuz yaxşılaşmalıdır. Gərginliyə həvəs göstərməyin.

**XƏRÇƏNG** - Yeni tanışlarınız sayəsində bəzi problemləriniz həll oluna bilər. Sadəcə olaraq, bu işdə prosesləri lazımi istiqamətə özünüz yönəltməlisiniz. Ötən səhvlərinizi təkrarlamayın.

**ŞİR** - Bu təqvim sizin üçün əlamətdar olacaq. Ən azı maraqlı və sevindirici xəbərlər eşidəcəksiniz. Qonşu və qohumlarla mülayim davranın. Sevgi münasibətlərində də uğurlarınız gözlənilir.

**QIZ** - Əgər səhhətiniz gümrahdırsa, ixtiyarınızda olan bu gündə probleminiz olmayacaq. Yeni və böyük işlərə başlamaq üçün əlinizə fürsət düşəcək. Evinizə qonaq gələcəyi gözlənilir.

**TƏRƏZİ** - Yaxşı olar ki, bu ərəfəni dini ayinlərə həsr edəsiniz. Əgər vaxtınızın çoxunu İlahiyə dualar etməklə başa vursanız, bunun savabı daha çox olacaq. Sevindirici hadisələr də gözlənilir.

**ƏQRƏB** - Səmərəli vaxt yaşayacağınız ehtimal olunur. Xüsusən də sevgi münasibətlərində xoş duyğulara sahib olacaqsınız. Sizə kömək etmək istəyənlərə qarşı şübhələrinizi aradan qaldırın.

**OXATAN** - Maddi firavanlığa qovuşmaq haqqında düşünməkdənsə, iş prinsipində aktivliyinizi artırın. Saat 15-17 arası maraqlı hadisələrin şahidi olacaqsınız. Ailə üzvlərinizə qayğı göstərin.

**OĞLAQ** - Zəhmətinizə qiymət verilmirsə, əbəs yerə enerji itirməyə dəyməz. Ulduzlar özünüzə yer tapa bilmədiyinizdən xəbər verir. Yaxşı olar ki, fəaliyyəti istirahətlə kompensasiya edəsiniz.

**SUTÖKƏN** - Yeni əlaqələrdə kifayət qədər uğurlara nail olmaq üçün bir neçə şans qazanacaqsınız. Bu səbəbdən ünsiyyətdə olduğunuz adamlarla münasibətlərinizi dərinləşdirməyə çalışmalısınız.

**BALIQLAR** - Hər mənada xoş ərəfədir. Keçmişin ağrı-acısını da xatırlamasanız, daha füsunkar olar. Günün ikinci yarısında təzə xəbərlərin, sevindirici hadisələrin şahidi və iştirakçısı olacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yarpaqdan başqa heç nə yeməyən adam



Pakistanın Gucranvala şəhərində yaşayan 50 yaşındakı Mehmood Butt 25 ildir yarpaq yeyir. "New York Post"un xəbərinə görə, yemək almaq üçün pulu olmadığı üçün yarpaq yeməyə başlayan pakistanlı adam tapdığı iş sayəsində pul qazanmağa başlamasına baxmayaraq, yemək vərdişindən əl çəkə bilmir. Eşşək arabası ilə daşımaçılıq edərək gündə 661 Pakistan rupisi (12 manat) qazanan Butt özünü daim yarpaq yeyəndə "yaxalayır". Onun qonşusu Gulam Mohammad isə deyib ki, heç vaxt onun xəstələndiyini və ya həkimə getdiyini görməyiblər: "Bir insan illərdir yarpaqlarla bəslənib, necə xəstələnməz, anlamırıq".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100